USAID
AMERİKA XALQINDAN

PH international
ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

# VƏTƏNDAŞ TƏHSILINDƏ LAYIHƏLƏR

Müəllimlər üçün köməkçi vəsait

# Vətəndaş təhsilində layihələr

Layihələr USAID vətəndaş təhsili proqramı çərçivəsində hazırlanmışdır

# Vətəndaş təhsilində layihələr

Müəllimlər üçün vəsait

**Müəlliflər:**

------

--------

İşçi qrupun rəhbəri:

Maka Bibileişvili

Redaktor: Rita Bainduraşvili

2023-ci il

Resurs Amerika xalqının dəstəyi və Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyinin səyləri əsasında hazırlanıb. Bu resursda ifadə olunan məlumat və rəylər yalnız müəlliflərin məsuliyyətidir və PH International və ya Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyinin və ya Birləşmiş Ştatlar Hökumətinin fikirlərini əks etdirmir.

# Ön söz

2022-2027-ci illərdə PH INTERNATIONAL təşkilatı Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyəsi və Gürcüstanın Təhsil və Elm Nazirliyinin dəstəyi ilə USAID-ın Gürcüstanda vətəndaş təhsili proqramını həyata keçirir.

Proqramın məqsədi vətəndaş proseslərində iştirak edən yüksək vətəndaş idrakına malik gənclərin yetişdirilməsidir. Proqram vətəndaş təhsilinin tədris-təlim prosesində texnologiyaların tətbiqini, məktəblərdə demokratik mədəniyyətin tətbiqini dəstəkləməyi, biznes və məktəbləri birləşdirməyi nəzərdə tutur. Proqram çərçivəsində bölünmüş funksional yüklə bütün Gürcüstan miqyasında birləşmiş tərəfdaş təşkilatlar bu məqsədə nail olmaqda öz töhfələrini verirlər.

Qarşıdakı vəsait proqram çərçivəsində Vətəndaş Təhsili Müəllimlərinin Forumu tərəfindən hazırlanmışdır. Proqram çərçivəsində digər fəallıqlarla birlikdə forumun yaratdığı mühüm resurslardan biridir. Dərslik tövsiyə xarakteri daşıyır və müəllimlər üçün nəzərdə tutulmuşdur və müəllimlərin köməyi ilə şagirdlər tərəfindən milli kurrikuluma və standarta uyğun layihələr həyata keçirməyə kömək edir. Bu fəallıqların məqsədi gənclər arasında demokratik dəyərləri, liderlik və qərar qəbuletmə bacarıqlarını inkişaf etdirməkdir. Hər bir layihədə əldə edilmiş bilikləri təcrübədə tətbiq etməyə imkan verən çoxlu faydalı və maraqlı resurslar var.

Şagirdlər layihələr həyata keçirməklə məktəb demokratiyasının inkişafına, cəmiyyətdə vətəndaş məsuliyyətinin gücləndirilməsinə və problemlərin həllinə dəstək verəcəklər. Bütün bunlar fəal vətəndaşların formalaşması üçün əsasdır.

Uğurlar arzulayırıq!

# Giriş

Qarşıdakı vəsait şagirdlərin maraqlarına və məktəbin ehtiyaclarına uyğun olaraq həyata keçirilə bilən 3 tövsiyə xarakterli layihəni əhatə edir. Layihələr "Vətəndaşlıq" fənninin standartına uyğunlaşdırılıb.

Layihə əsaslı tədris dəyərli təhsil almağın mühüm vasitələrindən biridir və belə hesab olunur ki, bu müddət ərzində şagirdlər məsələni daha yaxşı və dərindən öyrənə və bununla bağlı düzgün, vətəndaş münasibəti formalaşdıra bilirlər. Qarşıdakı layihələrin nümunələri əsasən "Vətəndaşlıq təhsilində layihələr" fənni üçün nəzərdə tutulmuşdur, amma ehtiyacların modifikasiyası əsasında müxtəlif siniflərdə, klublarda, şagirdlərin özünüidarəetməsində istifadə oluna bilər.

Yaxşı olardı ki, müəllim qabaqcadan şagirdləri layihələrlə tanış etsin və onların iştirakı ilə seçim etsinlər. Sinifdə bir və ya bir neçə layihə yerinə yetirmək olar (sayı şagirdlərin maraqlarından, imkanlarından və müəllimin bir neçə layihəyə birgə rəhbərlik etmək istəyindən asılıdır). Şagirdlərin problem haqqında bildikləri, seçilmiş layihədə qaldırılan məsələ ilə bağlı diskussiyaların təşkili və sonra növbəti mərhələlərin planlaşdırılması məqsədəuyğundur.

Layihəni həyata keçirərkən onun uğurunu təmin etmək və nəticə əldə etmək və ya saxlamaq üçün hər bir addımı izləmək lazımdır.

**Layihənin adı:**

## I mərhələ

Sahənin (mövzunun təsviri); sahə ilə münasibətdə problemlərin eyniləşdirilməsi.

| **Şagirdlərin fəallığı** | **Lazımi resurslar** |
|---|---|
| Şagirdlər məktəb cəmiyyətinin mühüm hesab etdiy sahələrdən birini seçirlər. | Sahə ilə münasibətdə dərs resursu, şagirdlərə problemin eyniləşdirilməsində yardım edən müvafiq əsas suallarla |
| Şagirdlər seçilmiş sahə ilə bağlı müvafiq ədəbiyyatla tanış olurlar. | |
| Şagirdlər vəziyyət üzrə analiz edirlər; bunun üçün onlar müvafiq mənbələri və tədqiqat metodlarını seçirlər. | |

**I mərhələnin nəticəsində** şagird vəziyyət üzrə analizi formalaşdırmalıdır.

## II mərhələ

İdeyalar və imkanlar

| **Şagirdlərin fəallığı** | **Lazımi resurslar** |
|---|---|
| Şagirdlər fəallıqlar üçün formaları ayırır, fəallıqların ideyalarını formalaşdırırlar. | Sahə ilə bağlı layihələrin analoqları |
| Şagirdlər məqsədlərin iyerarxiyasını yaradırlar:<br>• Fəallığın məqsədi;<br>• Layihənin məqsədi. | |
| Şagirdlər gözlənilən nəticələri formalaşdırırlar:<br>• Layihə məktəb cəmiyyətinin inkişafına nə kimi təsir göstərir. | |

| | |
|---|---|
| Planlaşdırılmış fəallıqları həyata keçirmək üçün hansı resursların lazım olduğunu, bu resursların nə qədər əlçatan olduğunu analiz edirlər | |
| Şagirdlər planlaşdırılmış fəallıqları həyata keçirmək üçün fəaliyyət planını formalaşdırırlar | |

**II mərhələnin nəticəsində** şagirdlər layihənin əsas hissəsini təqdim etməlidirlər: məqsəd, nəticə, fəallıq, fəaliyyət planı.

## III mərhələ

Layihənin həyata keçirilməsi

| Şagirdlərin fəallığı | Lazımi resurslar |
|---|---|
| Layihənin həyata keçirilmə prosesində şagirdlər kəsişmə nöqtələrini axtarır və məktəb cəmiyyətinin üzvləri ilə əməkdaşlıq edirlər:<br>• Məktəbin başqa şagirdləri ilə, şagirdlərin özünüidarəetməsi ilə;<br>• Məktəbin başqa müəllimləri ilə;<br>• Məktəb rəhbərliyi ilə;<br>• Kənar tərəfdaşlarla (lazım gəldiyində). | Şagirdlərə konkret sahə ilə bağlı cəmiyyət üzvləri ilə necə qarşılıqlı əlaqə qurmağı öyrədən funksional-komponent bacarıqlar üzrə resurslar:<br>• yaradıcılıq;<br>• ünsiyyət;<br>• kollaborasiya;<br>• vətəndaşlıq;<br>• xarakter/iradə;<br>• tənqidi düşüncə. |
| Şagirdlər məktəb cəmiyyəti qarşısında layihələri təqdim edirlər. | |

**III mərhələnin nəticəsində** şagirdlər layihənin nəticələrini təqdim etməlidirlər.

## IV mərhələ

Sabitlik və gələcək planlar

| Şagirdlərin fəallığı | Lazımi resurslar |
|---|---|
| Şagirdlər məktəb cəmiyyətinin üzvləri ilə birlikdə layihə nəticələrini qiymətləndirir və lazımi sabitliyin təminatı üçün nəyin lazım olduğunu planlaşdırırlar. | |

**IV mərhələnin nəticəsində** məktəbin dərs planında qeydlər edilir və bunlar da şagirdlərin həyata keçirdiyi layihənin sabitliyinin zəmanəti olacaqlar.

Layihənin həyata keçirilməsi prosesində fənn müəlliminin mühüm rolu var. Resurslara əsaslanaraq, tələbəyə məsələni anlamağa, problemi və ya layihənin sonrakı mərhələlərini düzgün müəyyən etməyə kömək edir. Fəallıq ərzində və cavabdeh şəxslərlə bölüşdürülməsi üçün Əlavə 1-ə baxın.

Hər bir layihədə müxtəlif fəallıq üçün lazımi resurs verilir və bu da məsələ və fəallıqların əsaslı şəkildə anlaşılması imkanını verir.

Layihələrin həyata keçirilməsi zamanı müəllimin şagirdlərin özünüqiymətləndirməsini mərhələlərlə, onlar üçün məqbul formada aparması arzu edilir. Qeyd olunan prosesin nəticələri müəllimdə mükəmməl inkişafetdirici qiymətləndirmənin formalaşmasına kömək edir.

## Vətəndaş jurnalist ol

| | |
|---|---|
| Mövzu | Media və mülki cəmiyyət |
| Məsələ | Vətəndaş jurnalistikası |

| | |
|---|---|
| Hədəf | Jurnalist materialları yaratmaqla yeniyetmələrdə yazı, hekayə etmək və texniki bacarıqların inkişafı və onların fəal vətəndaş kimi formalaşmasına imkan yaratmaq |
| Fənnlərarası inteqrasiya | Coğrafiya, Tarix, Vətəndaş Təhsili, Gürcü dili, Xarici dil, İnformasiya-Kommunikasiya Texnologiyaları |

## Layihənin vətəndaşlıq hədəf anlayışları ilə uyğunluğu

| **Cəmiyyət** | Demokratiya | Mülki iştirak | Davamlı inkişaf |
|---|---|---|---|
| Şagird digər insanlar/sosial qruplar/müəssisələrlə əməkdaşlıq edə və onlarla münasibətdə iddialı ola bilir; Başqaları ilə münasibətlərin onun şəxsi inkişafına kömək etdiyini dərk edir; Həmçinin, cəmiyyətdəki problemlərlə bağlı jurnalist materialları hazırlayarkən müxtəlif aktorlarla sağlam şəkildə ünsiyyət qurmağı bacarır. | Şagird demokratik cəmiyyətin formalaşmasında medianın rolunu, onun gücünü dərk edir; Media demokratik inkişafın ən mühüm vasitələrindən birikimi istifadə edir. Bu prosesdə şagird hər kəsin vətəndaş- siyasi, sosial-iqtisadi və ya kollektiv hüquqlara malik olduğunu və bu hüquqların müdafiəsinin demokratiyanın inkişafı üçün vacib olduğunu dərk edir; Həmçinin, jurnalist materialları üzərində işləyərkən şəffaflığı təmin edə bilir və ictimai problemlərin həllində hökumətin məsuliyyət daşıdığını dərk edir. | Şagird ictimai rifahınəldə edilməsi prosesində öz rolunu dərk edir. O bilir ki, demokratik cəmiyyət fəal vətəndaşlardan ibarətdir, özü də onların arasındadır; Həmçinin fəal vətəndaş, vətəndaş cəmiyyətinin təmsilçisi kimi ictimai problemləri kütləvi informasiya vasitələrindən istifadə edərək geniş ictimaiyyətlə bölüşərək həll etməyə çalışır. | Şagird yerli fəaliyyətlərin qlobal nəticələrə səbəb ola biləcəyini və davamlı inkişafın insanların rifahı və inkişafı üçün vacib olduğunu dərk edir; Həmçinin, şagird müxtəlif mövzuları əhatə etməklə davamlı inkişafın qarşısını alan mövcud problemlərə diqqəti cəlb etməklə davamlı inkişafa töhfə verir. |

## Layihənin demokratik mədəniyyətin səlahiyyətləri ilə əlaqəsi



Dəyərlər: insan ləyaqətinə və hüquqlarına dəyər vermək; Demokratiyaya, ədalətliliyə, dürüstlüyə, bərabərliyə və qanunun aliliyinə dəyər vermək.
Münasibətlər: hörmət; mülki düşüncə; məsuliyyət; inam.
Bacarıqlar: müstəqil öyrənmə bacarıqları; analitik və tənqidi düşünmə bacarığı; dinləmə və müşahidə bacarıqları; empatiya; dil, ünsiyyət və çoxdilli bacarıqlar; əməkdaşlıq bacarıqları.

Bilik və tənqidi d**ərketmə**: özünüdərketmə və tənqidi düşüncə; Dünyanı (siyasət, qanun, insan hüquqları, mədəniyyət, din, tarix, media, iqtisadiyyat, ətraf mühitin mühafizəsi və davamlı inkişaf) öyrənmək və tənqidi dərketmə.

## I **mərhələ** - Problemin müəyyən edilməsi və əsaslandırılması mərhələsi

Müəllimə tövsiyə

Təklif olunan layihənin nümunəsi və orada vurğulanan məsələ medianın və vətəndaş jurnalistikasının roluna istinad edir ki, bu da müxtəlif aktual mövzuların müxtəlif formatlarda işıqlandırılması ilə təcrübədə sınaqdan keçirilə bilər. Bundan əlavə, layihə uzunmüddətli də ola bilər.

Problemin müəyyən edilməsi və əsaslandırılması üçün atılacaq addımlar

- Beyin fırtınası - media və jurnalistika nədir?
- Şagirdlərə medianın funksiyaları haqqında məlumat vermək;
- Diskussiya - İctimai rifahın əldə edilməsində medianın rolu;
- Şagirdləri vətəndaş jurnalistlərin hazırladığı məhsullarla tanış etmək;
- Materialın işlənməsi və diskussiyanın aşağıdakı əsas suallarla təşkili:
  - Vətəndaş jurnalist kim və necə ola bilər? Bunun üçün nə lazımdır?
  - Vətəndaş jurnalistlər kimi, fəaliyyətimiz cəmiyyət/icma/ölkə/dünya üçün niyə vacibdir?
  - Bu layihəni həyata keçirməklə hansı nəticələr əldə edə bilərik?

Lazımi resurslar – proektor, leptop (video/foto resurslarını göstərmək üçün)

### Problemin **əsaslandırılmasının nümunəsi**

Texnologiyaların insanın inkişafında və həyatının sadələşdirilməsində böyük rol oynadığı müasir dünyada informasiyanın geniş ictimaiyyətə çatdırılması xeyli asanlaşıb. Nəticə etibarı ilə jurnalistika və media əsas informasiya yayıcısı kimi mühüm transformasiyaya məruz qaldı. Üstəlik, son illər ənənəvi medianın yoxa çıxmasının və ümumiyyətlə, medianın vətəndaş jurnalistikası ilə əvəzlənməsi təhlükələri barədə xüsusilə fəal danışılır.

Jurnalistikanın ənənəvi peşədən "sadə" peşəyə çevrilməsi müsbət tendensiya sayıla bilər, çünki peşəkar jurnalistin resursları həmişə bu və ya digər icmada mövcud olan bütün yerli problemləri həll etmək iqtidarında olmaya bilər. Bu gün istənilən şəxs vətəndaş jurnalist (citizen journalist) ola bilər. Bununla o, bir vətəndaş kimi öz vətəndaşlıq borcunu yerinə yetirərək ictimai həyatın yaxşılaşdırılmasında, aktual problemlərin həllində öz rolunu oynamaq və ya sadəcə olaraq, müxtəlif maraqlı mövzularda vətəndaşlara məlumat çatdırmaq imkanı əldə edir.

Vətəndaş jurnalistin hansısa media qurumunda işləməsinə, bu istiqamətdə təhsil almasına ehtiyacı yoxdur. Bunun üçün internet və yazı bacarıqları və ya foto və ya video çəkə biləcəyiniz smartfon lazımdır. Müasir texnoloji vasitələr və rəqəmsal medianın inkişafı media məhsulunun yaradılmasına və geniş ictimaiyyətə yayılmasına imkan yaradır. Yaradılan məzmun istənilən sosial mediada və ya şəxsi bloqda yayıla bilər.

Gürcüstanda vətəndaş jurnalistikasının tarixi bir neçə ildir ki, mövcuddur və o, hələ də inkişafın ilkin mərhələsindədir, lakin hər hansı bir şəxs tərəfindən lokal olaraq yayılan bir hekayə genişmiqyaslı, hətta qlobal dəyişikliklərə səbəb ola bilər. Ağır uşaq əməyini və ya ekoloji problemləri əks etdirən, kənd sakininin çəkdiyi foto- şəkil təkcə həmin kənddə və ya şəhərdə deyil, həm də ölkə miqyasında dəyişikliklərə səbəb ola bilər. Məhz bu, Gürcüstanda hələ ki, az başa düşülən vətəndaş jurnalistin roludur və onun reallaşdırılması məktəb yaşından məsuliyyətli və məlumatlı vətəndaşların artmasına kömək edəcək.

### Problemin müəyyən edilməsi və layihə fəaliyyətlərinin həyata keçirilməsi üçün lazımi resurslar

- Vətəndaşlıq VIII sinif, "Dioqene" nəşriyyatı (səh. 47-56)
- Media və medianın funksiyaları
- Aktiv vətəndaşa necə çevrilim (səh. 18-21)
- Gürcüstanda mülki (vətəndaş) jurnalistikası və onun inkişaf perspektivləri
- Vətəndaş jurnalistikası nə dərəcədə vacibdir?
- Mahiyyətcə həll edilə bilən və Gürcüstanda həyatı dözülməz edən on problem

## Mərhələ II – **hədəflərin**, vəzifələrin və onlara nail olmaq üçün zəruri olan fəaliyyətlərin müəyyən edilməsi

**Müəllimə tövsiyə**

Təklif olunan layihənin *hədəfləri*, vəzifələri və onlara nail olmaq üçün fəaliyyətlərin şagirdlərinizin və yerli icmanın ehtiyac və maraqlarına uyğun olaraq planlaşdırılması vacibdir. Həmçinin, layihənin planlaşdırılması prosesinə yeniyetmələrlə birlikdə yerli ictimaiyyətin nümayəndələrinin, məktəb icmasının üzvlərinin, yerli özünüidarəetmə orqanlarının, ekspertlərin və müxtəlif məsələlərlə məşğul olan təşkilatların cəlb olunması da arzuolunandır. Bundan əlavə, layihə çərçivəsində yaradılan məhsulları geniş ictimaiyyətlə bölüşmək - müsbət təsir və effekt əldə etmək vacibdir.

Şagirdlərin cəlb edilməsi və iştirakının keyfiyyətini artırmaq üçün onlara qeyd olunan materialı nümunə kimi təklif edin və layihə çərçivəsində mövcud olan ehtiyacları və digər detalları birlikdə müəyyənləşdirin - məsələn, xəbəri hansı formatda (video, mətn, foto) yayacaqlar.

## Layihənin hədəfi, vəzifələri və fəaliyyətləri nümunəsi



**Hədəf:** Jurnalist materialları yaratmaqla, yeniyetmələrdə yazı, hekayə etmək və texniki bacarıqların inkişaf etdirilməsi və onların fəal vətəndaş kimi formalaşmasına imkan yaratmaq.

Hədəfə çatmaq üçün növbəti **vəzifələri** həyata keçirin:

- Şagirdlərin medianın vətəndaş cəmiyyəti üçün əhəmiyyətini və rolunu dərk etməsi;
- Şagirdlərin ictimai problemləri işıqlandırmaqla öz vətəndaşlıq məsuliyyətlərini təhlil etmələri;
- Şagirdlər tərəfindən jurnalist materiallarının hazırlanması və yayılması vasitəsilə ictimai problemlərin həllinə imkan yaratmaq;
- Müxtəlif üsullardan (mətn, foto, audio, video) istifadə etməklə şagirdlərdə hekayə etmək qabiliyyətinin inkişafı.

Gözlə**nilən nəticələr:**

Şagirdlər medianın vətəndaş cəmiyyətində əhəmiyyətini bilir, bu problemi işıqlandırmaq və əhalini məlumatlandırmaq yolu ilə müxtəlif problemlərin həllində öz vətəndaşlıq rolunu dərk edirlər; Hekayəni həm şifahi, həm də yazılı və ya audio/vizual olaraq qısa, başa düşülən şəkildə çatdıra bilirlər.

H**ədəf**, vəzifə və fəaliyyətləri müəyyənləşdirərkən aşağıdakı suallardan istifadə edilə bilər:
-İctimai problemlərin həllində medianın rolu və gücü nədən ibarətdir?
-Vətəndaş jurnalist necə ola bilərəm, vətəndaşlıq borcumu necə ödəyə bilərəm və necə məsuliyyətli vətəndaş ola bilərəm?
-Mən yerli icmanın/ölkənin/dünyanın inkişafına nə töhfə verə bilərəm?

**Fəaliyyətlərin nümunələri**

| Fəaliyyət | Fəaliyyətin hədəfi | Alt-fəaliyyətlər |
|---|---|---|
| Məlumatlandırıcı görüş - Vətəndaş jurnalistikası nədir və mən necə vətəndaş jurnalist ola bilərəm? | Şagirdləri vətəndaş jurnalistikasına xas aspektlərlə tanış etmək və onlara vətəndaş jurnalist olmağa imkan verən imkanlar haqqında məlumat vermək. | *Müəllim tərəfindən məlumatlandırıcı görüşün planlaşdırılması, mediada çalışan, görüşü aparacaq və təcrübələrini şagirdlərlə bölüşəcək şəxsləri dəvət etməsi.<br>*Görüş planlaşdırmaq və şagirdləri dəvət etmək;<br>*Görüş üçün otağın və müvafiq avadanlıqların seçilməsi/hazırlanması. |
| Film(All the President's Men (1976)) nümayişi | Film vasitəsilə şagirdlər tərəfindən medianın gücünü, rolunu/funksiyasını dərk etmək. | * Filmin nümayişi üçün təşkilati məsələlərin həlli (şagirdlərin dəvət edilməsi, yerin rezervasiyası, müvafiq texniki avadanlıqla təmin edilməsi);<br>*Film nümayişi/diskussiya(diskussiya sualları üçün Əlavə 1-ə baxın) |
| Jurnalist Etikası Xartiyasının nümayəndəsi ilə görüş | Şagirdlərin jurnalist etikası normaları və vətəndaş jurnalist kimi hüquqlarını dərk etməsi. | *Müəllim şagirdləri Jurnalist Etikası Xartiyası və onun məqsədi ilə tanış edir;<br>*Qonaq dəvət etmək və ya Jurnalist Etikası Xartiyasının ziyarəti;<br>* Görüşün təşkili;<br>* Zəruri hallarda iclas üçün yer və texniki avadanlıqların hazırlanması. |
| Vəkillə görüş - ictimai məlumatı necə əldə edə**k** | Şagirdləri ictimai məlumatların növləri ilə tanış etmək və dövlət orqanlarından ictimai məlumat tələb etmək qaydaları və vasitələri haqqında məlumat vermək. | * Şagirdləri ictimai məlumat növləri ilə tanış etmək və ictimai məlumatların tələb edilməsi haqqında məlumat vermək;<br>*Vəkilin dəvət edilməsi;<br>*Vəkillə görüşün təşkili;<br>*Görüş üçün lazım olan məkanın və texniki avadanlıqların hazırlanması.<br><br>Lazımi resurslar:<br>- İctimai məlumat nədir?<br>(http://csb.gov.ge/navigations/%E1%83%A1%E1%83%90%E1%83%AF%E1%83%90%E1%83%A0%E1%83%9D-%E1%83%A1%E1%83%90%E1%83%9B%E1%83%A1%E1%83%90%E1%83%AE%E1%83%A3%E1%83%A0%E1%83%98%E1%83%A1-%E1%83%91%E1%83%98%E1%83%A3%E1%83%A0%E1%83%9D/%E1%83%A1%E1%83%90%E1%83%AF%E1%83%90%E1%83%A0%E1%83%9D-%E1%83%98%E1%83%9C%E1%83%A4%E1%83%9D%E1%83%A0%E1%83%9B%E1%83%90%E1%83%AA%E1%83%98%E1%83%90/ ) |

| | | |
|---|---|---|
| | | - İctimai məlumat haqqında qanun (http://service.court.ge/public/matsne.pdf ) |
| Müəllimlə iş görüşü/görüşləri. | Şagirdləri cəmiyyətdəki problemlərin müəyyən edilməsi və araşdırmanın planlaşdırılması yolları ilə tanış etmək. | * Layihədə iştirak etmək istəyən şagirdlərin siyahısının tərtib edilməsi;<br>* Şagirdlərlə görüş planlaşdırmaq, onlara görüş haqqında məlumat vermək;<br>* Müəllimin araşdırmanın aparılması texnikaları ilə tanış etməsi;<br>* Şagird qruplarının formalaşdırılması;<br>*Şagirdlər tərəfindən araşdırmanın aparılması müddətinin, auditoriya və formatın müəyyən edilməsi;<br>* Şagird qrupları tərəfindən araşdırma hədəflərinin və suallarının formalaşdırılması.<br><br>**Fənn ilə inteqrasiya:Coğrafiya**<br><br>Lazımi resurs:<br><br>- Araşdırmanı necə keçirək? - http://css.ge/wp-content/uploads/2019/07/raodenobrivi_kvlevis_meTodebis_saxelomzgv.pdf (*səh.* 25-33) |
| Vorkşop – hadisə**ni necə işıqlandıraq** | Şagirdləri media növlərinin və müxtəlif jurnalist materiallarının (məqalə, video, audio, foto) xüsusiyyətləri ilə tanış etmək. | *Media sahəsində təcrübəsi olan şəxsin, jurnalistin dəvət olunması/ hər hansı media qurumuna səfər;<br>*Görüş üçün otağın və müvafiq avadanlıqların hazırlanması. |
| Xəbər otağının yaradılması və rolların bölüşdürülməsi | Xəbər otağının formalaşdırılması və şagirdlər arasında rolların bölüşdürülməsi. | * Layihədə iştirak edən şagirdlərlə görüşün təşkili;<br>*Xəbər otağının iş prinsipi ilə tanış olmaq;<br>* Rolların bölüşdürülməsi.<br><br>Lazımi resurs:<br><br>- Xəbər otağı necə işləyir?<br><br>(https://egyankosh.ac.in/bitstream/123456789/57074/1/Unit%203.pdf – (ingilis dilində)<br><br>Fənn ilə inteqrasiya: İngilis dili |

| | | |
|---|---|---|
| Araşdırma aparmaq | İcmada mövcud və vətəndaş jurnalistlərin/şagirdlərin işıqlandıracağı problemlərin müəyyən edilməsi. | *Respondentlərlə müsahibə və məlumatların toplanması;<br>*Məlumatların təhlili;<br>*Xəbər otağında araşdırmaların nəticələrinə görə müəyyən edilmiş problemlərin işıqlandırılmasının planlaşdırılması, mövzu və funksiyaların bölüşdürülməsi.<br><br>Fənn ilə inteqrasiya: İnformasiya-Kommunikasiya Texnologiyaları |
| Bloq/YouTube kanalı/sosial media səhifələrinin yaradılması | Vətəndaş jurnalistlər/şagirdlər tərəfindən hazırlanmış jurnalist materiallarının yerləşdiriləcəyi media platformun/platformların yaradılması. | * Xəbər otağı iclasının təşkili;<br>*Şagirdlər üçün sosial media səhifələrinin yaradılması üçün təlimatların verilməsi;<br>* Sosial media səhifələrinin yaradılması;<br>* Sosial media səhifələri üçün ad, loqo dizaynının düşünülməsi və yaradılması.<br><br>Fənn ilə inteqrasiya: İnformasiya-Kommunikasiya Texnologiyaları<br><br>Lazımi resurslar:<br>- Facebook-da necə səhifə yaradaq? (https://www.youtube.com/watch?v=26EWhcbPldU )<br>- Youtube-da necə kanal yaradaq? (https://www.youtube.com/watch?v=lios87YN8JU )<br>- Bloq yaratmaq üçün təlimat (http://www.ict.tpdc.ge/video/48?ch=162 ) |
| Media məhsulları yaratmaq üçün lazım olan materialların toplanması (foto-şəkil, müsahibə, məlumat) | Media məhsullarının hazırlanması üzrə işlərin başlanması. | *Müsahibələrin planlaşdırılması və çəkiliş;<br>*Media məhsulları üçün lazımi məlumatların toplanması. |
| Video-montaj öyrənmək üçün vorkşop | Şagirdlərə video montajın əsas texnikalarını öyrətmək və toplanmış materiallar əsasında video reportajlar hazırlamaq. | *Video-montaj bilən şəxsin dəvət olunması;<br>*Maraqlanan şagirdlər üçün vorkşopun təşkili;<br>*Görüş üçün lazım olan məkanın və texniki avadanlıqların hazırlanması (vorkşopun kompüter laboratoriyasında keçirilməsi arzuolunandır). |

| | | |
|---|---|---|
| | | **Fənnlə inteqrasiya:** İnformasiya-Kommunikasiya Texnologiyaları<br><br>Lazımi resurslar:<br>- Vide-montaj üçün applikasiyalar (https://www.mediachecker.ge/ka/resursebi/article/65865-8-aplikacia-romelic-shegidzliath-videos-samontazhod-gamoiyenoth ) |
| Jurnalistika məhsulları üzərində iş | Şagirdlər tərəfindən icmada mövcud problem və ehtiyaclarla bağlı media məhsullarının yaradılması üzrə işlərin başa çatdırılması. | *Xəbər otağında təyin olunmuş rollara uyğun olaraq media məhsullarının yaradılması/redaktə edilməsi;<br>* Yaradılmış media məhsullarını sosial mediaya/bloqa yüklənməsi. |
| Yekun tədbir - jurnalist materiallarının təqdimatı | Layihənin yekunlaşdırılması və gələcək addımların planlaşdırılması. | * Yekun tədbirin təşkili - müvafiq auditoriyanın və ya texniki avadanlıqların hazırlanması;<br>* İştirakçıların tədbirə dəvət edilməsi (icma nümayəndələri, media nümayəndələri, məktəb icmasının üzvləri, lazım gələrsə, yerli özünüidarəetmənin nümayəndələri);<br>* Tədbirdə çıxış edənlərin müəyyən edilməsi;<br>* Təqdimatdan sonra disskusiya/müzakirə;<br>* Gələcək planların qurulması;<br>* Mümkün yeni əməkdaşlıqların qurulması. |

Fəaliyyət planı ( fəaliyyətləri vaxt üzrə və məsul şəxslər arasında lazımi şə**kildə** bölüşdürün)

| Fəaliyyətlər | |
|---|---|
| 1. Məlumatlandırıcı görüş - Vətəndaş jurnalistikası nədir və mən necə vətəndaş jurnalist ola bilərəm? | 8. Araşdırma keçirmə**k** |
| 2. Film(All the President's Men (1976)) nümayişi | 9. Bloq/YouTube kanalı/ sosial media səhifələrinin yaradılması |
| 3. Jurnalist Etikası Xartiyasının nümayəndəsi ilə görüş | 10. Media məhsulları yaratmaq üçün lazım olan materialların toplanması (foto-şəkil, müsahibə, məlumat) |
| 4. Vəkillə görüş - ictimai məlumatı necə əldə edək | 11. Video-montaj öyrənmək üçün vorkşop |
| 5. Müəllimlə iş görüşü/görüşləri. | 12. Jurnalist məhsulları üzərində iş |
| 6. Vorkşop – hadisəni necə işıqlandıraq? | 13. Yekun tədbir - jurnalist materiallarının təqdimatı |
| 7. Xəbər otağının yaradılması və rolların bölüşdürülməsi | |

## III mərhələ - Əməkdaşlıq və layihənin icrası

Müəllimə tövsiyə

Şagirdlərdən layihə haqqında məlumatı məktəb ictimaiyyətində yaymalarını xahiş edin. Layihədə iştirak edən şagirdlər yerli icmanın üzvləri və məktəb icması ilə daim əməkdaşlıq etməlidirlər ki, zərurət yaranarsa, onlar sizə mövcud problemlər haqqında mühüm məlumat verə bilsinlər və bu problemlər daha sonra layihə çərçivəsində işıqlandırıla bilər.

Maraqlı tərəflərin təhlili - potensial dəstəkçilər

Tərəfdaşların tapılması

Layihə ictimai problemlərin həlli üçün məktəb ictimaiyyətinin üzvləri ilə əməkdaşlığı, onların media məhsullarının yaradılması prosesinə birbaşa cəlb edilməsini nəzərdə tutur. Bundan əlavə, ekspertlər, hüquqşünaslar, jurnalistlərlə əməkdaşlıq etmək vacibdir ki, onlar lazım gəldiyi halda, layihədə iştirak edən şagirdlərlə təcrübə və biliklərini bölüşəcəklər. Seçilmiş problemi əhatə etmək üçün lazım olacaq məlumatları onlardan almaq üçün yerli özünüidarəetmə orqanları ilə əlaqə saxlamaq və əməkdaşlıq etmək vacibdir. Regional media ilə əməkdaşlıq da arzuolunandır.

Görüşl**ərin təşkili**

Layihə çərçivəsində layihədə iştirak edən şagirdlərə öz ekspert bilikləri ilə kömək edəcək müxtəlif mütəxəssislərlə görüşlərin təşkili də nəzərdə tutulub.

**Məktəb özünüidarəetməsinin iştirakı**

Məktəb layihələri bütün məktəbi əhatə edərsə daha təsirli olar ki, bunda sizə məktəb özünüidarəetməsi kömək edəcək. Sinif nümayəndəsi planlaşdırılan görüşlər və mövzuların işıqlandırılması haqqında özünüidarəetmənin digər üzvlərinə məlumat verə bilər, bu da şagirdlərin iştirakını və fəallığını artıracaq.

Media il**ə** **ə**laq**ə**li f**ə**aliyy**ə**t göst**ə**r**ə**n t**ə**şkilatlar

Sözügedən məsələlər üzərində işləyən və əməkdaşlıq qura biləcəyimiz təşkilatların siyahısını təqdim edirik:

- Gürcüstan Jurnalist Etikası Xartiyası
- Gürcüstanın Xalq Müdafiəçisi Aparatı
  Media Advokatlaşdırma Koalisiyası
- Gürcüstanın Gənc Hüquqşünaslar Assosiasiyası

## IV mərhələ - davamlılıq

Müəllimə tövsiyə

Şagirdlərin iştirakı ilə layihənin davamlılığına töhfə verə biləcək tədbirləri müəyyənləşdirin. İcma nümayəndələri ilə gələcək əməkdaşlığı planlaşdırın.

Layih**ənin qiymətləndirilməsi**

Layihəni qiymətləndirmək üçün, ilk növbədə, iştirakçının şagirdlərlə refleksiya aparması vacibdir, bu zaman hansı maneələrlə qarşılaşdığınızı və onları necə dəf etdiyinizi müzakirə edirsiniz; Yaradılan media resursları və onların yayılması ilə hansı nəticələr əldə etdiniz; Gələcəkdə nə daha yaxşılaşdırıla bilər?

Layih**ənin davamlılığı**

Başlanmış fəaliyyətlərin davamlılığı layihənin sabitliyi üçün vacibdir. Müəllim şagirdlərə cəmiyyətdəki mühüm məsələlərin/xəbərlərin işıqlandırılmasının hansı formada davam etdiriləcəyini və hansı vasitələrlə - bloq, YouTube kanalı və ya sosial şəbəkədə yaradılmış səhifə şəklində yayılacağını təklif etməlidir.

Gözlənilən risklər:

- Layihə çərçivəsində potensial respondentlər tərəfindən skeptisizm və müsahibə və məlumat verməkdən imtina;
- Mümkündür ki, ölkənin heç bir kəndinə və ya qəsəbəsinə fiziki səfər edə bilməyəcəkləri üçün mütəxəssislərlə onlayn görüşlər keçirilsin.

Solo taksonomiyaya gör**ə** qiymətl**ə**ndirm**ə**

| | Cəmiyyət | Demokratiya | Mülki iştirak | Davamlı inkişaf |
|---|---|---|---|---|
| Nisbi səviyyə | Şagird cəmiyyətdəki problemlərlə bağlı jurnalist materialları hazırlayarkən müxtəlif aktorlarla sağlam ünsiyyətin vacibliyini izah edir; İnsanlar/sosial qruplar/qurumlarla əməkdaşlıqda iddialılığın vacibliyini başa düşür. | Şagird demokratik cəmiyyətin formalaşmasında medianın rolunu təhlil edir, demokratik inkişafda medianın rolu ilə əlaqə qurur;<br><br>Demokratik cəmiyyətdə insan hüquqlarının əhəmiyyətini təhlil edir, ictimai problemlərin işıqlandırılmasında şəffaflığı təmin edir və lazım gəldikdə yerli hakimiyyət orqanları ilə əməkdaşlıq edir. | Şagird cəmiyyətdəki sosial problemləri müəyyən edir və jurnalist materialları hazırlamaqla onların həllinə töhfə verməyə çalışır; Həmçinin, ümumi ictimai rifaha nail olmaq prosesində hər bir vətəndaşın məsuliyyətini və rolunu əsaslandırır. | Şagird davamlı inkişafın vacibliyini əsaslandırır; Davamlı inkişaf dedikdə nə nəzərdə tutulduğunu izah edir və bununla bağlı cəmiyyətdə mövcud olan problemləri vurğulayır. |

## Əlavə 1

Diskussiya üçün suallar

1. Film sizdə hansı hisslər qoydu?
2. Fikrinizcə, filmin əsas məqamı nə idi? - bir ifadə/cümlə/sözlə çatdırın…
3. Filmdə jurnalistin hansı keyfiyyətlərini görmək olar?
4. Filmin süjet xəttinə əsasən, necə düşünürsünüz, demokratik proseslərdə medianın rolu nədir?
5. Hansı epizodu daha çox yadda qaldı? Niyə
6. Filmdə jurnalistika və media ilə bağlı nəyi kəşf etdiniz?
7. Film sizə nə öyrətdi? Və əldə etdiyiniz biliklərdən nədə istifadə edəcəksiniz?

## Gürcüstanın avrointeqrasiyası

| | |
|---|---|
| Mövzu | Siyasi mədəniyyət |
| Məsələ | Gürcüstanın avrointeqrasiyası |
| Hədəf | Gürcüstanın avrointeqrasiya prosesi haqqında şagirdlər arasında məlumatlılığın artırılması, Avropa dəyərlərinin dərk edilməsi. |
| Fənnlərarası inteqrasiya | Coğrafiya, Tarix |

Layihənin vətəndaşlıq hədəf anlayışları ilə uyğunluğu

| **Cəmiyyət** | Demoktariya | Mülki iştirak | Davamlı inkişaf |
|---|---|---|---|
| • Şəxsi inkişaf baxımından Avropa İttifaqının rolunu müzakirə edəcəklər;<br>• Öz fikirlərini bildirməyi öyrənəcək və iddialı mühit yaratmağa kömək edəcəklər. | • Demokratiya prinsiplərini həyat situasiyaları ilə əlaqələndirəcəklər;<br>• Demokratik dövlət quruculuğu və insan hüquqlarının qorunması baxımından Avropa İttifaqının rolunu müzakirə edəcəklər;<br>• Demokratiyanın qurulması baxımından institutların rolunu dərk edəcəklər. | • İştirakın vacibliyini dərk edəcək və icmada mövcud çətinliklərin azaldılması prosesində öz rolunu və əhəmiyyətini görəcəklər;<br>• İctimai məlumatlılığın artırılmasına töhfə verəcəklər;<br>• Ölkənin inkişafına necə kömək edə biləcəklərini müzakirə edəcəklər. | • Yerli və beynəlxalq proseslərin əhəmiyyətini nəzərə alacaqlar;<br>• Qlobal problemlərin həllində Avropa İttifaqının rolunu başa düşəcəklər. |

## Layihə**nin demokratik mədəniyyət kompetensiyaları ilə əlaqəsi**




## I **mərhələ** - Problemin mü**əyyəne dilməsi və əsaslandırılması mərhələsi**

**Müəllimə tövsiyə**

Məktəb yeniyetmədə öz ölkəsinin dövlət, mədəni, iqtisadi və siyasi maraqlarını düzgün müəyyənləşdirmək bacarığını inkişaf etdirməli və ona düzgün qərarlar qəbul etmək, fəal hərəkət etmək imkanı verməlidir (Ümumi Təhsil Milli Məqsədləri).

Təqdim olunan layihə şagirdlərə Avropa dəyərlərini dərk etməyə, ilk Avropa Birliyinin yaranma, genişlənmə və inkişaf mərhələlərini öyrənməyə, Gürcüstanın Avropa İttifaqına daxil olmasının zəruriliyini müzakirə etməyə kömək edəcək. Bu prosesdə fasilitator və köməkçi kimi rolunuz vacibdir. Şagirdlərin təşəbbüslərini dəstəkləyin, onları layihənin müxtəlif mərhələlərində təklif olunan fəaliyyətləri keyfiyyətli şəkildə yerinə yetirməyə təşviq edin.

Problemin **əsaslandırılması nümunəsi**

1992-ci ildə Avropa İttifaqı Gürcüstanı müstəqil dövlət kimi tanıdı və onunla əlaqələrə başladı. Avropa İttifaqı ilə Gürcüstan arasında real əməkdaşlıq 1999-cu ildən aktivləşdi.

Avropaya inteqrasiya yolunda çox mühüm[tarixlər] var. Onların arasında 2014-cü il iyunun 27-də imzalanmış - 2016-cı ildə qüvvəyə minmiş Gürcüstan-Aİ Assosiasiyası və Dərin və Hərtərəfli Azad Ticarət Zonası (DC FTA) haqqında sazişlər var. 2017-ci ildən Gürcüstan vətəndaşları Aİ/Şengen zonasında vizasız səyahət rejimindən istifadə edirlər.

Bu çətin və çağırışlarla dolu olan yolda ən mühüm addım 2022-ci il martın 3-də Gürcüstanın Avropa İttifaqına üzvlük üçün müraciət etməsi ilə atıldı. Bu mərhələdə ölkəmiz namizəd statusunu gözləyir.

Bu gün Gürcüstanın Avropa və Avro-Atlantik inteqrasiyası bir çox maneələrlə üzləşir. Anti-Qərb təbliğatı və açıq-aşkar rusiyayönlüpartiyalar əhaliyə nihilist münasibət aşılamağa çalışır.

Buna baxmayaraq, əhalinin böyük əksəriyyəti Avropa İttifaqına daxil olmağın tərəfdarıdır. NDI sorğusunun 2022-ci ilin dekabr məlumatlarına əsasən, sorğuda iştirak edən əhalinin 81%-i Gürcüstanın Avropa İttifaqına üzvlüyünü dəstəkləyir. Lakin bu məlumatlar yuxarıda qeyd olunan səbəblərdən arxayın olmağa imkanvermir.

Gürcüstanın Avropa gələcəyi üçün hər kəs bir kərpic qoya bilər. Məlumatlı vətəndaş asanlıqla manipulyasiya və ya təbliğatın qurbanına çevrilə bilməz. Ölkənin inkişafı üçün gələcək nəsil vacibdir, çünki o, Avropanın biliyi və təcrübəsinin nə yaxşı şeylər gətirdiyini, Avropa İttifaqının Gürcüstana müxtəlif istiqamətlərdə necə kömək etdiyini, Avropa və Gürcüstan dəyərlərinin nə olduğunu və belə bir şəraitdə Avropa Birliyi kimi siyasi-iqtisadi birliyə ölkənin tam inteqrasiyanın necə xeyir verə biləcəyini bilir.

Avrointeqrasiya proseslə**rinin əhəmiyyətini dərk etmək üçün atılmalı addımlar**

- Avropa İkinci Dünya Müharibəsindən - iqtisadi yüksəlişə kimi;
- Polad və Kömür Birliyi necə güclü siyasi-iqtisadi ittifaqa çevrildi?
- Avropa İttifaqına yeni üzvlərin qəbulu və digərmühüm məsələlərin həlli ilə bağlı qərarlar harada və necə qəbul edilir?
- Ölkənin Avropa seçimini hansı amillər müəyyən edir?
- Nə üçün əhalinin əksəriyyəti Avropa İttifaqına inteqrasiyanı seçir?
- Hər bir vətəndaş ölkənin Avropa İttifaqına inteqrasiya prosesinin sürətləndirilməsinə necə töhfə verə bilər?
- Avropa İttifaqı müxtəlif istiqamətlərdə (demokratiyanın gücləndirilməsi, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, vətəndaş cəmiyyəti, davamlı inkişaf, institusional inkişaf və s.) Gürcüstana necə və nə üçün kömək edir?
- Niyə anti-Qərb təbliğatı və rus narativləri ölkənin Avropa kursuna qarşıdır?
- Avropa İttifaqına üzvlük üçün hansı tələblər yerinə yetirilməlidir?
- Kənd/icma/şəhərdə hansı problemlər aktualdır və Gürcüstanın Avropa İttifaqına daxil olması onların həllinə necə kömək edə bilər?
- Viza rejiminin liberallaşdırılması nədir?
- Assosiasiya Sazişi və DCFTA nələri əhatə edir?

Lazımi resurslarr – proektor, leptop (video/foto resurslarını nümayişi üçün).

| Problemin müəyyən **edilməsi və layihə fəaliyyətlərinin həyata keçirilməsi üçün lazımi resurslar** |
|---|
| • Animasiya – Avropa İttifaqının tarixi<br>• Animasiya – Avropa İttifaqının strukturu<br>• Animasiya – Avropa İttifaqına üzvrlük meyarları<br>• Avropa İttifaqı haqqında 10 mif<br>• "Nə üçün Avropa?" məqaləsi<br>• Məlumat - Gürcüstan və Avropa İttifaqı<br>• Araşdırma - Gürcüstanda dezinformasiyanın yayılması, dövlətin mövqeyi və mübarizə yolları<br>• Məlumat – Avropa İttifaqı nədir<br>• Animasiya - DCFTA nədir<br>• Animasiya – Assosiyasiya Sazişi haqqında ümumi məlumat<br>• İlia Çavçavadze – "Nə üçün Avropa?"<br><br>• Google anketini necə hazırlayaq?<br>• Gündəlik nümunəsi |

II mərhələ - **hədəflərin, vəzifələrin və onlara çatmaq üçün lazımi fəaliyyətlərin aydınlaşdırılması**

Müəllimə tövsiyə

Təklif olunan layihə tövsiyə xarakteri daşıyır. Gürcüstanın müxtəlif regionlarında müxtəlif ehtiyacları, imkanları və resursları olan məktəblər var. Buna görə də, təklif olunan h*ədəfləri*, tapşırıqları və ya fəaliyyətləri xüsusi olaraq şagirdl*ərinizin* ehtiyaclarına və baxışlarına uyğunlaşdırın. Qeyd olunan layihə çərçivəsində valideynlərin, yerli özünüidarəetmə nümayəndələrinin, fəal vətəndaşların, sahə üzrə mütəxəssislərin, həmçinin, bir müddət Avropa ölkələrində olmuş insanlar və s. layih*əyə çəlb* edilməsi vacibdir; Onların dəvəti və cəlb edilməsi layihə üzərində iş prosesini r*əngarəng edəcək*, ilkin mənbədən etibarlı və təsdiqlənmiş məlumatların əldə edilməsinə və ondan sonrakı istifadəsinə töhfə verəcək.

Şagirdlərə layihənin müxtəlif mərhələlərinə yaradıcı yanaşmaq imkanı verin; Onların yeni fəaliyyətlər əlavə etmək baxımından təşəbbüslərini təşviq edin.

## Layihənin hədəfi, vəzifələrin və fəaliyyətlərin nümunəsi



**Hədəf:** şagirdlərdə Gürcüstanın avrointeqrasiya prosesi haqqında maarifləndirilməsi, Avropa dəyərlərinin dərk olunması.

Hədəfə çatmaq üçün növbəti **vəzifələri** yerinə yetirin:

- Avropa İttifaqını ən uğurlu iqtisadi-siyasi birlik kimi tanımaq;
- Avropa İttifaqında qərar qəbul edən strukturlarının öyrənilməsi;
- Gürcüstanın inkişafında Avropa İttifaqının rolunun təhlili;
- Ölkənin Avropa İttifaqına gələcək üzvlüyü üçün atılacaq addımların müəyyən edilməsi.

Gözlə**nilən nəticələr:**

Şagirdlər Avropa İttifaqının ən güclü iqtisadi-siyasi birliyə çevrilməsi haqqında məlumata sahibdirlər, Avropa dəyərlərini dərk edir, ölkənin maraqlarını qoruyur və Avropaya inteqrasiyanı güclü şəkildə dəstəkləyirlər. Şagirdlər Avropa İttifaqında qərar qəbul edən strukturları və onların iş prinsiplərini bilirlər.

Məqsəd, vəzif**ələr** və fəaliyyətləri müəyyənləşdirərkən aşağıdakı suallardan istifadə edilə bilər:

- Avropa İttifaqı üzv olmayan ölkə kimi Gürcüstana institusional inkişaf baxımından necə və nə üçün kömək edir?
- Nə üçün Avropa İttifaqı dəyərlər və ənənələrlə bağlı məsələlərə görə nüfuzdan düşür?
- Ölkənin Avropa kursunu dəstəkləmək üçün necə töhfə verə bilərəm?
- Avropa İttifaqında mühüm qərarları kim qəbul edir?

**Fəaliyyətlərin nümunələri**

| Fəaliyyət | Fəaliyyətin hədəfi | Alt-fəaliyyətlər |
|---|---|---|
| Mövzuya dair məqalə/bloqun hazırlanması: Avropa İttifaqı - keçmiş və indi | Şagirdlər Avropa Birliyinin yaradılması, genişlənməsi və institusionallaşması haqqında ətraflı məlumat alsınlar. | * Lazımi ədəbiyyatın müəyyən edilməsi;<br>* Ədəbiyyatın işlənib-hazırlanması;<br>* Məqalə/bloqun sinifdə paylaşılması. |
| Mövzu üzrə araşdırma aparmaq: Avropa İttifaqı haqqında miflər və reallıqlar | Şagirdlər Avropa İttifaqqı ilə bağlı cəmiyyətdə yayılmış yanlış təsəvvürləri və gələcək addımları müəyyən etsinlər. | * Araşdırma üçün hədəf qrupunun seçilməsi (araşdırma birbaşa kimlə aparılacaqsa);<br>* Araşdırma metodunun seçilməsi;<br>* Araşdırma məsələsinin dəqiqləşdirilməsi və anketlərin hazırlanması;<br>* Araşdırmanın sahədə aparılması və nəticələrin təhlili.<br><br>Resurslar:<br>Google anketini necə hazırlayaq? 🔗 |
| Dəyirmi masa – Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirmək üçün hansı addımlar atılmalıdır | Şagirdlər Avropa İttifaqına sürətli inteqrasiya üçün aparılacaq islahatları dərk etsinlər | * Dəyirmi masa formatı müqaviləsi;<br>* Qonaqları dəvət etmək (qonaq kimi yerli jurnalisti, vətəndaş cəmiyyəti nümayəndəsini, həmçinin ERASMUS+ mübadilə proqramından yararlanmış gənci və s. dəvət edə bilərsiniz;<br>* Gündəmin müəyyən edilməsi;<br>* Dəyirmi masanın nəticələrinin paylaşılması (süjet və ya məlumatlandırıcı məqalənin hazırlanması). |
| Süjet hazırlamaq - Avropa mənim kəndimdə / icmam / şəhərimdə və mənim kəndim / icmam / şəhərim Avropada. | Şagirdlər Avropa İttifaqının kəndlərinə, şəhərlərinə (ətraf mühitin mühafizəsi, infrastruktur və s.) birbaşa olaraq necə kömək etdiyini müəyyən etməli və yaşadıqları bölgədən Aİ ölkələrinə hansı | * Maliyyələşdirilən və həyata keçirilən layihələr haqqında məlumatların tapılması və işlənməsi;<br>* Avropa İttifaqı faydalarından faydalanan şəxs/təşkilatın tapılması;<br>* Süjetin hazırlanması və paylaşılması. |

| | | |
|---|---|---|
| | məhsulların ixrac edildiyini müəyyən etməlidirlər. | Texniki avadanlıq:<br><br>Leptop, proektor<br><br>Resurslar:<br><br>https://eu4georgia.eu/ka/<br><br>https://eu4georgia.eu/ka/enpard/ |
| Bukletl**ərin** hazırlanması və icmada yayılması | Şagirdlər icmalarında Avropa İttifaqı haqqında maariflənməyə və Avropa İttifaqının yardım proqramları haqqında məlumat yaymağa imkan yaratmalıdırlar. | * Əldə olunan nəzəri material əsasında bukletin məzmun və strukturunun müəyyən edilməsi;<br><br>* Bukletin dizaynın işlənib-hazırlanması;<br><br>* Bukletdə əks olunacaq məlumat üzrrə razılığa gəlmək;<br><br>* Bukletin icmada yayılması.<br><br>Texniki avadanlıq:<br><br>Leptop<br><br>Bukletləri hazırlamaq üçün aşağıdakı veb səhifədən istifadə edə bilərsiniz: www.canva.com |
| Avropa İttifaqında qərarlar necə qəbul edilir - virtual tur | Şagirdlər Avropa İttifaqında qərar qəbul edən orqanları kəşf edəcək və onların rolunu dərk etsinlər | Siz Avropa İttifaqında qərarların harada və necə qəbul edildiyini araşdırmaqda maraqlısınız. Avrostrukturlar ilə tanış olmaq üçün virtual tur təşkil etməyə qərar verdiniz. Avropa strukturları, onların səlahiyyətləri, komplektləşmə qaydası ilə tanış oldunuz və **Ə**lavə 1-də verilmiş cədvəli doldurdunuz.<br><br>Cədvəli doldurarkən Gürcüstanın Avropa İttifaqına daxil olmaq üçün müraciətin baxılmasında və statusun verilməsi qərarında iştirak etmiş strukturlara diqqət yetirin. |

| | | |
|---|---|---|
| | | Resurslar<br><br>(http://old.infocenter.gov.ge/euinfo-institutions/#1 - Avrostrukturlar<br><br>https://www.youtube.com/watch?time_continue=136&v=o7oEB9dTuOc&feature=emb_title – Avropa İttifaqının strukturu |
| Nəsillərarası dialoq - Avropa mənim və sənin gözünlə | Şagirdlər müxtəlif nəsillərin mövqeyini/fikirlərini dinləməli və mübadilə edə bilsinlər | *Müzakirə gündəminin və formatının müəyyən edilməsi;<br><br>* Müzakirə suallarının hazırlanması;<br><br>* Müxtəlif nəsil nümayəndələrini dəvət etmək;<br><br>* Müzakirə üçün məkanın təşkili. |
| Debatlar – Nə **üçün** Avropa? (Siyasi debat formatı) | Şagirdlər tənqidi düşünmə bacarıqlarından istifadə edərək Avropaya inteqrasiyanın zəruriliyini əsaslandıra bilsinlər | * Müzakirənin qətnamə hissəsi üzrə uzlaşma;<br><br>* Debatın qaydaları haqqında razılaşma;<br><br>* Debat üçün məkan hazırlamaq;<br><br>* Debatları keçirmək.<br><br>Tövsiyə olunan istiqamətlər:<br><br>A. Nə üçün Avropa - təhsil istiqamətində;<br><br>b. Nə üçün Avropa - ticarət və iqtisadiyyat istiqamətində;<br><br>c. Nə üçün Avropa - kənd təsərrüfatı istiqamətində;<br><br>d. Nə üçün Avropa - siyasi dəstək və ədalətin təkmilləşdirilməsi istiqamətində;<br><br>e. Avropa - məqsəd və ya vasitə.<br><br>Dünya məktəbi üslubunda debatların keçirilməsi prinsipləri və təlimatları ilə linkə keçid alaraq tanış ola bilərsiniz: |

| | | |
|---|---|---|
| | | https://www.calameo.com/read/0069180749859be53b669<br>Karl Koper stilində debatlar üçün təlimat aşağıdakı linkdə verulib:<br>http://taoba.edu.ge/ wp-content/uploads/2018/10/დებატების-წესები-PDF-ფაილი.pdf<br>http://www.osgf.ge/files/2017/Publications/debate.pdf Siyasi debatlar fomatı) |
| Avropa Şurasının modelləşdirilmiş sessiyası - Avropa İttifaqının gələcək genişlənməsi | Şagirdlər ölkənin maraqlarını nəzərə almalı və Gürcüstana namizəd statusunun verilməsinin/Avropa İttifaqına qoşulmanın zəruriliyini əsaslandırmağı bacarsınlar | * Tövsiyə olunan ssenari üzrə rolların bölüşdürülməsi (Ssenariyə **Əlavə** 2-də baxın);<br>* Gürcüstan nümayəndə heyətinin hesabat nitqinin hazırlanması;<br>* Modelləşdirmə məkanının hazırlanması/təşkili;<br>* Müzakirə üçün məkanın təşkili;<br>* Avropa Şurası iclasının modelləşdirilməsi. |

Fəaliyyət planı ( fəaliyyətləri vaxt üzrə və məsul şəxslər arasında lazımi **şəkildə** bölüşdürün)

| **Fəaliyyətlər** | |
|---|---|
| 1. Mövzuya dair məqalə/bloqun hazırlanması: Avropa İttifaqı - keçmiş və indi | 6. Avropa İttifaqında qərarlar necə qəbul edilir - virtual tur |
| 2. Mövzu üzrə araşdırma aparmaq: Avropa İttifaqı haqqında miflər və reallıqlar | 7. Nəsillərarası dialoq - Avropa mənim və sənin gözünlə |
| 3. Dəyirmi masa – Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirmək üçün hansı addımlar atılmalıdır | 8. Debatlar – Nə **üçün** Avropa? (Siyasi debat formatı) |
| 4. Süjet hazırlamaq - Avropa mənim kəndimdə / icmam / şəhərimdə və mənim kəndim / icmam / şəhərim Avropada. | 9. Avropa Şurasının modelləşdirilmiş sessiyası - Avropa İttifaqının gələcək genişlənməsi |
| 5. Bukletl**ərin** hazırlanması və icmada yayılması | |

## III mərhələ - Əməkdaşlıq və layihənin həyata keçirilməsi

Müəllimə tövsiyə

Layihənin həyata keçirilməsinin ikinci mərhələsində şagirdlər sizin dəstəyinizə ehtiyac duyacaqlar. Onlara təklif olunan resursları emal etməyə və əlavə məlumat tapmağa kömək edin. Onlardan sizinlə araşdırma aparmalarını və kənd/şəhər/regionunuzda Avropa İttifaqı tərəfindən dəstəklənən layihələri tapmalarını xahiş edin.

Müxtəlif vaxtlarda Aİ tərəfindən dəstəklənən proqramlarda və ya qrant müsabiqələrində iştirak etmiş şəxslər, sahibkarlar, təşkilatlar və ya yerli özünüidarəetmə nümayəndələri ilə əlaqə saxlayın. Onları məktəbə dəvət edin və ya şagirdlərə onlarla müsahibə yazmağa kömək edin.

Şagirdlərə rol və funksiyaları təyin etməkdə kömək edin. Onları layihənin yekun/xülasə tədbirinə - modelləşdirməyə hazırlayın.

Məktəb ictimaiyyətinin məlumatlandırılmasına gəlincə, onları layihənin addımları barədə daim məlumatlandırın, məktəbin sosial səhifəsindən, məlumat lövhəsindən istifadə edin və s. Layihə icraçıları qrupunda layihənin gedişatı ilə bağlı həftəlik postlar hazırlayacaq ictimaiyyətlə əlaqələr üzrə məsul şagirdl*ərin* olması mümkündür.

Layihənin müxtəlif mərhələləri haqqında xəbərləri dərc edəcəyiniz layihə üçün xüsusi platforma yaratmaq arzuolunandır.

### Maraqlı **tərəflərin təhlili – potensial dəstəkçilər**

Ortaqların tapılması

Layihənin həyata keçirilməsi müxtəlif resursların hazırlanmasını və paylaşılmasını nəzərdə tutur. İstənilən fəaliyyətin həyata keçirilməsi zamanı resursların təmin edilməsinə ehtiyac yarana bilər. Məktəb rəhbərliyi ilə əməkdaşlıq edin, özəl sektorda dəstəkçilər tapın və onların resurslarından istifadə edin.

Görüşün t**əşkili**

Şagirdlərin layihə çərçivəsində planlaşdırılan tədbirlərin planlaşdırılması və həyata keçirilməsində sizə yardımçı ola biləcək məktəb müəllimləri ilə əməkdaşlıq etməsi arzuolunandır. Effektiv əməkdaşlığın baş tutması üçün dəvət olunmuş qonaqları (müəllimlər, valideynlər və ya digər maraqlı tərəflər) planlaşdırılan görüşlər barədə əvvəlcədən yazılı şəkildə məlumatlandırmaq vacibdir.

**Məktəb özünüidarəetməsinin iştirakı**

Məktəb layihələri bütün məktəbi cəlb edərsə, daha effektiv olar - məktəb özünüidarəetməsi bu işdə mütləq sizə kömək edə bilər. Sinif nümayəndəsi digər özünüidarəetmə üzvlərini planlaşdırılan görüşlər və şagirdlərin iştirakını və iştirakı artıracaq tədbirlər haqqında məlumatlandıra bilər.

## IV mərhələ - Davamlılıq

| Müəllimə tövsiyə | Layihənin əvvəlində, nəticələri ölçmək üçün istifadə edəcəyiniz pre və post testləri yaradın (bax: Əlavə 3); Həmçinin, tələbələrin özlərini cəlb etməklə, layihənin davamlılığına töhfə verə biləcək tədbirləri qeyd edin. |
| --- | --- |

### Layihənin qiymətləndirilməsi

Layihənin nəticələrini ölçmək üçün əvvəlində və sonunda şagirdlərin Avropaya inteqrasiya proseslərinin əhəmiyyətini və ölkənin inkişafını nə dərəcədə artıracağını başa düşdüklərini gördüklərini göstərəcək pre və post testlərin keçirilməsi məqsədəuyğundur.. Bundan əlavə, layihə başa çatdıqdan sonra layihə çərçivəsində nəyin uğurla həyata keçirildiyini refleksiya vasitəsilə müzakirə etmək vacibdir; Hansı maneə törədən amillər və problemlər müəyyən edilib; Gələcəkdə bu çətinliklərin qarşısını almaq üçün nə etmək lazımdır?

### Layihənin davamlılığı

Layihənin davamlılığı, istifadə olunan resurslara əsaslanaraq, məktəb daxilində Avropa Şurasının modelləşdirməsinin aparılması təcrübəsi ilə müəyyən edilir. Layihənin sonunda Avropa guşəsi, müzakirə məkanı, klub və s. yaradıla bilər ki, bu da məktəb və icma daxilində Avropaya inteqrasiya proseslərinin əhəmiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının qayğısına qalacaq.

### Gözlənilən risklər:

- Layihənin müxtəlif mərhələlərində iştirak baxımından şagirdlərin aşağı motivasiyası və hazırlığı;
- Mövzunun spesifikliyinə görə məktəb ictimaiyyəti layihə fəaliyyətlərində (məsələn, sorğu) iştirakdan çəkinməyi.

### Solo taksonomiyaya görə qiymətləndirmə

| | **Cəmiyyət** | Demokratiya | Mülki iştirak | Davamlı inkişaf |
| --- | --- | --- | --- | --- |
| Nisbi **səviyyə** | Şagird Avropa İttifaqının insanın, cəmiyyətin azad inkişafına və onun ehtiyaclarının ödənilməsinə (fizioloji, təhlükəsizlik, özünü ifadə etmə) necə kömək etdiyini təhlil edir. | Şagird demokratik mühitin yaradılması baxımından Avropa İttifaqının rolunu başa düşür, insan hüquqlarının və demokratik prinsiplərin qorunması baxımından ittifaqın rolunu müzakirə edir. | Şagird ictimaiyyəti məlumatlandırmaq baxımından öz fəal vətəndaş rolunu müzakirə edir. | Şagird Avropa İttifaqının dəstək proqramlarının mühiti yaxşılığa doğru necə dəyişdiyini müəyyən edir; O, qlobal problemlərin həllində Avropa İttifaqının rolunu görür. |

## Əlavə 1

Avropa İttifaqında qərarlar necə qəbul edilir? - Avropa strukturları

| İnstitut növü | Strukturun adı | Komplektləşmə qaydası | Əsas fəaliyyət sahələri |
|---|---|---|---|
| Avropa İttifaqının qanunvericilik orqanı | | | |
| Avropa İttifaqının idarəçi (icraçı) strukturu | | | |
| Qərarlar iki - nazirlər və dövlət rəhbərləri səviyyəsində verilir | | | |
| Avropa İttifaqının məhkəmə hakimiyyəti | | | |
| Avropa İttifaqının maliyyə strukturu | | | |

## Əlavə 2

Avropa Şurasının iclası üçün modelləşdirmə təlimatları

Məsələ: Avropa İttifaqının Şərqi və Cənubi Avropaya doğru genişlənməsi

Təlim məqsədləri: Bu simulyasiyada iştirak etməklə şagirdlər:

- Avropa İttifaqı və qərar qəbul etmə proseduru haqqında biliklərini dərinləşdirəcəklər;
- Avropa daxilində danışıqların və ittifaqların qurulmasının dinamikasını başa düşəcəklər;
- Danışıqlar bacarıqlarını inkişaf etdirəcəklər.

Avropa Şurası haqqında əsas məlumatlar:

Avropa Şurası Şuranın sədri və Komissiyanın sədri ilə birlikdə üzv dövlətlərin hökumət və ya dövlət başçılarından ibarətdir. Onun işində Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi iştirak edir. Avropa Şurası Avropa İttifaqının ümumi siyasətini və prioritetlərini müəyyən edir. Onun qanunvericilik funksiyası yoxdur. Avropa Şurası daha aşağı səviyyədə həlli mümkün olmayan çətin və həssas məsələləri müzakirə edir. Avropa Şurası Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətini formalaşdırır; Həmçinin, o, Avropa Mərkəzi Bankı və Avropa Komissiyası kimi mühüm qurumlarda müəyyən yüksək vəzifələrə namizədləri təmsil edir və təsdiq edir. Avropa Şurası adətən prezidentin dəvəti ilə altı ayda iki dəfə toplanır. Vəziyyət tələb edərsə, Şura növbədənkənar sessiya çağırır. Prezident birdəfəlik yenilənmə ilə (Lissabon müqaviləsinə əsasən) iki il yarım müddətinə təyin edilir. Avropa Şurası adətən Brüsseldə toplanır.

Avropa Şurasının sədri vəzifəsi Lissabon Müqaviləsi ilə (2,5 il, maksimum iki müddət üçün) təqdim edilib və onun əsas funksiyası Avropa Şurasının iclaslarının hazırlanmasıdır. Bu funksiya eyni zamanda başqa vəzifədə olmağı qadağan edir. Prezident Avropa Şurası tərəfindən ixtisaslı səs çoxluğu ilə seçilir.

Ssenari

Avropa İttifaqının Xorvatiyanı öz sıralarına qəbul etməsindən on il keçir (2013). O vaxtdan bəri Avropa İttifaqı genişlənmədi, lakin azalma oldu - Böyük Britaniya ittifaqı tərk etdi (BrExit).

Aİ-nin genişlənməsinin tərəfdarları, əleyhdarları və neytral mövqedə olan ölkələri var. Bir qayda olaraq, Baltikyanı və Şərqi Avropa dövlətləri Avropa Birliyinin artmasına və müxtəlifliyinə dəstək verirlər. İttifaqın aparıcı dövlətləri (Fransa, Almaniya, İtaliya) rəqib olaraq qeydə alınırlar. Neytral mövqedə olan ölkələrə gəlincə, bu qrupa Skandinaviya və Mərkəzi Avropa ölkələri daxildir.

Avropa Şurasının iclasında ittifaqın genişləndirilməsi, namizəd statusunun verilməsi ilə bağlı məsələlər və digər mühüm qərarlar konsensus prinsipinə riayət edilməklə yekdilliklə qəbul edilir; Yəni, 27 üzv ölkənin liderləri konkret ölkəyə namizəd statusunun verilib-verilməməsi barədə razılığa gəlirlər.

Avropa Şurasında qərarların qəbulu prosesində hər bir ölkə öz maraqlarından çıxış edir. Eyni zamanda, danışıqlar zamanı konsensus və razılıq Avropa siyasi mədəniyyətinin tərkib elementidir. Bu zaman istənilən ölkə özünə sərfəli olan alternativ təklifə görə öz mövqeyindən vaz keçə bilər. 2022-ci ilin iyununda Avropa Şurası tarixi qərar qəbul etdi - Ukrayna və Moldovaya namizəd statusu, Gürcüstana isə Avropa perspektivi statusu verdi (2022-ci il, 23 iyun Gürcüstanın Avropa gələcəyi üçün nə deməkdir?)

https://infocenter.gov.ge/blog/ras-nishnavs-2022-ts-23-ivnisi-saqarthvelos-evropuli-momavlisthvis/)

Modelləşdirmə və simulyasiya prosesində hər bir lider, onun sözü və sonrakı danışıqların düzgün aparılması arzu olunan qərar üçün böyük əhəmiyyət kəsb edir.

Layihənin yekun mərhələsi - Avropa İttifaqının gələcək genişlənməsinin perspektivi Avropa Şurasının iclasının modelləşdirilməsi üçün mövzu kimi təklif olunur.

Modelləşdirmədən əvvəl öyrənin:

- Ölkədəki əsas problemlər (diqqətinizi Rusiya-Ukrayna müharibəsi, mühacirət böhranı, iqlim dəyişikliyi, əhalinin münasibətləri və s. kimi mühüm məsələlərə yönəldin);
- Avropa İttifaqının genişlənməsi ilə bağlı əhalinin münasibəti;
- Ölkədə mövcud sosial-iqtisadi vəziyyəti və s.

Mövqeyinizi araşdırma nəticəsində əldə edilmiş məlumat əsasında formalaşdırın. Sessiya zamanı güzəştlər edə bilərsiniz.

Xəritə 1: Aİ üzvü, namizəd və potensial namizəd ölkələr




## Avropa Şurası iclaslarının modelləşdirilməsi üçün simulyasiya fəaliyyətlərinin nümunələri

* Modelləşdirmə mediada işıqlandırılmalıdır. Süjetlər və canlı yayımlar hazırlayın. Bunun üçün jurnalistləri əvvəlcədən seçin.

**Fəaliyyət** I – hazırlanacaq iş**lər**

Zalı hazırlayın və stol və stulları dairə şəklində düzün;
* Üzv ölkələrin bayraqlarını hazırlayın və ya onların rəngli fotoşəkillərini çap edin.

**Fəaliyyət** II – Rolların bölüşdürülm**əsi**

Rolları paylayın (təsadüfi və ya istədiyiniz kimi);
* Fərqli rolları olan liderlərə mövqe formalaşdırmaq üçün vaxt verin (bu, modelləşdirmədən əvvəlki günlərdə baş verə bilər).

Şagird**lərə** tövsiyə: Gürcüstan nümayəndə heyəti Baş Nazir, Prezident və ya hər ikisi tərəfindən təmsil oluna bilər.
* Müraciət mətnini hazırlayın, burada əsaslandırmalısınız:
- Ölkəyə Avropa İttifaqına namizəd statusu niyə verilməlidir;

Ölkənin artıq namizəd statusu varsa:
- Nə üçün Avropa İttifaqı Gürcüstanla üzvlük danışıqlarına sürətləndirilmiş rejimdə başlamalıdır?

* Modelləşdirmə zamanı aşağıdakı rollar təmsil oluna bilər: Avropa Şurasının sədri, Avropa Komissiyasının sədri, Avropa İttifaqının 27 üzv dövlətinin ali nümayəndəsi - prezident və ya Baş nazir, Gürcüstan nümayəndəsi - prezident və ya baş nazir və s.

Şagirdl**ər üçün tövsiyə**
Avropa Şurası Aİ-yə üzv ölkələrin 27 liderini (prezident/baş nazir/kansler), Avropa Şurası və Avropa Komissiyasının prezidentlərini (ümumilikdə, 29 iştirakçı) birləşdirir. Eyni zamanda, namizəd statusu və ya üzvlük əldə etmək istəyən sözlə çıxış edən ölkələrin liderlərinə də ehtiyac var.
Sinifdə uyğun sayda şagird olmaya bilər. Bu problemi həll etməyin iki yolunu təklif edirik:

1. Bölgələr üzrə qruplaşın. Məsələn, Baltikyanı ölkələrin maraqlarını bir lider (şagird) qoruya bilər, Skandinaviyanı - bir lider və s.

2. Digər siniflərin şagirdləri ilə əməkdaşlıq edin və onları layihənin həyata keçirilməsinin müxtəlif mərhələlərinə cəlb edin.

Avropa Şurasının sessiyasına səsvermə hüququndan istifadə etməyən sədr rəhbərlik edir. O, iclası açır, gündəmi təqdim edir və iş prosesinə rəhbərlik edir.

Şuranın sədri çıxış edənlər üçün vaxt həddi, danışıqların müddəti və s. müəyyən etmək/təyin etmək səlahiyyətinə malikdir.

Simulyasiyanın əvvəlində idarə heyətinin sədri gündəmi təqdim edir, vaxt limitini təyin edir, danışıqlar prosesini asanlaşdırır.

rolları paylayın (təsadüfi və ya istədiyiniz kimi);

* Fərqli rolları olan liderlərə mövqe formalaşdırmaq üçün vaxt verin (bu, modelləşdirmədən əvvəlki günlərdə baş verə bilər)

## Fəaliyyət III - Gürcüstan nümayəndə heyətinin çıxışı

* Müraciət mətnini hazırlayın, burada əsaslandırmalısınız:
- Ölkəyə Avropa İttifaqına namizəd statusu niyə verilməlidir;

Ölkənin artıq namizəd statusu varsa:
- Nə üçün Avropa İttifaqı Gürcüstanla üzvlük danışıqlarına sürətləndirilmiş rejimdə başlamalıdır?

## Fə**aliyyət** IV – Modell**əşdirmə -** Danışıqların aparılması

İclası Avropa Şurasının sədri açır, o iclası gündəmlə nəzərdə tutulan məsələləri təqdim edir.

* Müzakirəyə başlayın və müzakirə olunacaq məsələlərlə bağlı mövqenizi təqdim edin;

* Danışıqlar raundu çərçivəsində müxtəlif ölkə nümayəndələri ilə ikitərəfli və rəngarəng danışıqlar aparmağa çalışın.

*Q**ərarın verilməsi və elan edilməsi**.

## Əlavə 3

Pre və post testlər

* Pre *və post anketi arzuolunandır ki, layihənin başlanğıcı və sonunda keçirilsin. Müəllim anketdəki suallarrı/müddəaları rəngarəng edə, doldura və əlavə edə bilər.*

| Müddə**a** | Tamamilə **razılaşıram** | Qismən razıyam | Razı deyil**əm** |
|---|---|---|---|
| Gürcüstanın Avropa İttifaqına daxil olması ölkənin inkişafını və tərəqqisini sürətləndirəcək | | | |
| Avropa İttifaqı Gürcüstanın ərazi bütövlüyünü tanıyır və işğal olunmuş ərazilərin işğaldan azad edilməsini dəstəkləyir | | | |
| Avropa İttifaqı Gürcüstana sektor inkişafında kömək edir | | | |
| Avropa İttifaqı kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, təhsil, infrastrukturun inkişafı və digər mühüm sahələrdə layihələr maliyyələşdirir. | | | |
| Vizasız gediş-gəliş çərçivəsində Gürcüstan vətəndaşları Şengen zonasına üzv və namizəd ölkələrə səyahət edə bilərlər. | | | |
| Avropa İttifaqı qitədə sülhün, inkişafın və rifahın təmin edilməsinə yönəlmiş iqtisadi-siyasi birlikdir. | | | |
| Avropa Şurası Avropa İttifaqında qərarın qəbulu üzrə ən yüksək strukturdur | | | |
| Avropa İttifaqı bütün üzv dövlətlərin müxtəlif məsələlərə fərdi yanaşmasına hörmətlə yanaşır | | | |
| Avropa İttifaqının dəyərləri gürcü dəyərləri ilə ziddiyyət təşkil etmir, əksinə, bir-birini tamamlayır | | | |
| Avropa İttifaqı inkişafın, texnoloji tərəqqinin, keyfiyyətli təhsilin, yaşıl iqtisadiyyatın ən yaxşı nümunəsidir | | | |
| Avropa İttifaqınım təhsil proqramları Gürcüstan vətəndaşlarına Avropa universitetlərində ödənişsiz keyfiyyətli təhsil almaq və qeyri-formal təhsil fəaliyyəti ilə məşğul olmaq imkanı verir. | | | |

## Məktəbi daha yaxşı bir yerə necə çevirək?

| Mövzu | Məktəb icması |
|---|---|
| Məsələ | Məktəb infrastrukturunun yaxşılaşdırılması |
| Hədəf | Şagirdlərdə əməkdaşlıq, təşkilatçılıq, komanda işi, vaxtın idarə edilməsi və digər bacarıqların təkmilləşdirilməsinə və məktəb mühitini yaxşılaşdırmaqla onların məsuliyyətli vətəndaş kimi formalaşmasına imkan yaratmaq. |
| Fənlərarası inteqrasiya | Vətəndaş təhsili, Coğrafiya, Riyaziyyat |

### Layihənin vətəndaşlıq hədəf anlayışları ilə uyğunluğu

| **Cəmiyyət** | Demokratiya | Mülki iştirak | Davamlı inkişaf |
|---|---|---|---|
| Şagird insanlar/sosial qruplar/qurumlarla əməkdaşlıqda iddialıdır; Digər insanlarla ünsiyyət və şəxsi inkişaf əlaqəsini izah edir; Bununla, təhlil edir ki, istənilən insanın inkişafı üçün sosial kontaktlara ehtiyacı var; Fərqli fikirlərə hörmət edir və başqaları ilə əməkdaşlıq edir. | Şagird məktəbdə demokratik mühitin formalaşmasının əhəmiyyətini təhlil edir və dərk edir ki, demokratik mühitin formalaşması üçün məktəb icmasının hər bir üzvünün hüquqlarının bərabər qorunması mühümdür. Bu da öz növbəsində məktəb mühitinin yaxşılaşdırılmasında mühüm rol oynayır. | Şagird məktəbdə mövcud problemi görür, problemi həll etmə nəticələrini təhlil edir və onu həll etmək üçün lazımi addımların planlaşdırılmasında və həyata keçirilməsində iştirak edə bilir. Həmçinin, məsuliyyətli şagird kimi, məktəb icmasında mövcud problemlərin həlli istiqamətində bərabərlik və şəffaflığın əhəmiyyətini əsaslandırır və layihələrin planlaşdırılması-həyata keçirilməsində, könüllülük fəaliyyətlərində öz rolunu görür. | Şagird, məktəb icmasında mövcud infrastruktur problemlərinin həlli prosesində resurslardan sabit istifadə etməyin əhəmiyyətini izah edir; Həmçinin, təhlil edir ki, lokal davranışlar qlobal nəticələrlə sonlana bilər; Bundan əlavə, innovasiyalar və infrastrukturun yaxşılaşdırılması və davamlı inkişaf arasında əlaqə yaradır. |

### Layihənin demokratik mədəniyyət kompetensiyaları ilə əlaqəsi



Dəyərlər: insan ləyaqətinə və hüquqlarına dəyər vermək; Demokratiyaya, ədalətliliyə, dürüstlüyə, bərabərliyə və qanunun aliliyinə dəyər vermək.

Münasibətlər: hörmət; mülki düşüncə; məsuliyyət; inam; Mədəni fərqliliklərə və digər inanclara, dünyagörüşlərə, baxışlara və ya təcrübələrə qarşı tolerant münasibət göstərməyə hazır olmaq.

Bacarıqıar: Analitik və tənqidi düşünmə bacarığı; dinləmə və müşahidə bacarıqları; empatiya; dil, ünsiyyət və çoxdilli bacarıqlar; əməkdaşlıq bacarıqları; Münaqişəni həlletmə bacarıqları.

Bilik və tənqidi d**ərketmə**: Özünüdərketmə və tənqidi dərketmə; Dil və ünsiyyəti öyrənmək və tənqidi dərketmə.

## I **mərhələ** - Problemin müəyyən edilməsi və əsaslandırılması mərhələsi

Müəllimə tövsiyə

Təklif olunan layihənin nümunəsi məktəbin infrastrukturunun yaxşılaşdırılmasına yönəlib, lakin ekologiyaya, demokratiyanın keyfiyyətinin artırılmasına, intellektual/idman fəaliyyətini rəngarəngləməyə, klubların yaradılmasına və s. həsr oluna bilər. Layihənin praktikada həyata keçirilməsi zamanı ilkin mərhələdə bu və ya digər məktəbdə *mövcud olan*, bütün layihənin *üzərində* qurulacağı infrastruktur problemi ortaya çıxacaq. Buraya həyət, laboratoriya, kitabxana, bəzi xüsusi məkan və s. daxil ola bilər.

Problemin **əsaslandırılmasının nümunəsi**

Uşaq məktəbdə həyatının mühüm mərhələsini - 12 ilini keçirir. Məhz bu dövrdə onun üçün əsas dəyərlər formalaşır ki, bu da sonradan onun bütün həyatına təsir göstərməlidir. Məktəb uşağa yalnız təhsil vermir, həm də şəxsi və sosial inkişafına kömək edir. Buna görə də məktəbdəuşağın düzgün inkişafına yönəlmiş sağlam, pozitiv mühitin yaradılması vacibdir. Sağlam mühitə hər şey daxildir - infrastruktur, müəllimlərin münasibəti, demokratiya və təhsil resurslarının təminatı və s.

Problemin müəyyən edilməsi və əsaslandırılması üçün atılacaq addımlar

Şagirdlərə məktəb icması və şagird özünüidarəetməsi üzvlərinin hüquq və vəzifələri haqqında ətraflı məlumatın verilməsi;
Diskussiya - Məktəbimi yaxşılaşdırmaq prosesində hansı rolu oynaya bilərəm?
Fəal şagirdlər tərəfindən məktəb mühitinin yaxşılaşdırılması üçün həyata keçirilən layihələr və nümunələrlə tanışlıq;
Materialın işlənməsi və aşağıdakı əsas suallarla diskussiyanın təşkili:
Qaydalar, hüquqlar və vəzifələr arasında fərq nədir və onlar dəyişdirilə bilərmi?
Məktəb şagirdinin hüquq və vəzifələri hansılardır?
Məktəb mühitinin yaxşılaşdırılmasına kim hansı töhfəni verə bilər?
Bu layihəni həyata keçirməklə hansı nəticələr əldə edə **bilərik**?

Lazımi resurslar – proektor, leptop (video/foto resurslarını nümayiş etdirmək üçün).

UNİCEF-in dəstəyi ilə SAKSTAT-ın 2022-ci ildə keçirdiyi sorğuya əsasən, valideynlərin əksəriyyəti məktəbdə alınan təhsildən razıdır, lakin Gürcüstanda tədris materiallarının çatışmazlığı hələ də ciddi problem olaraq qalır. Xüsusilə, uşaqların 45%-nin ən azı bir təhsil əşyası yoxdur. Araşdırmaya görə, uşaqlarda ən çox çatışmayan təhsil əşyaları arasında kompüter (29%), ikinci yerdə rəsm materialları, kitablar və musiqi alətləri gəlir.

Bundan əlavə, bir çox məktəblərin hələ də infrastruktur problemləri var, üstəlik, bəzi məktəblərin təcili bərpası tələb olunur. Hökumətin planına görə, 2026-cı ilin sonuna qədər Gürcüstanda 800 məktəb təmir edilməli və ya tikilməlidir, lakin ölkə üzrə 2089 dövlət məktəbi olduğu üçün bəzi məktəblərdə infrastruktur problemlərinin xüsusilə aktual qalacağı ehtimal edilir. Bununla belə, infrastruktur təkcə baxımlı və təhlükəsiz bina demək deyil və onun təkmilləşdirilməsi həmişə əlavə olaraq şagirdlərin maraqlarına uyğun məkanların təkmilləşdirilməsi/yaradılması ilə həyata keçirilə bilər - istər kitabxana, laboratoriya, zal, musiqi otağı, açıq məkan, idman infrastrukturu, istirahət məkanı və s.

Bu gün məktəblərdəki çətinliklər fonunda Gürcüstanda bir məktəbin şagirdin tələsdiyi və özünü rahat hiss edə biləcəyi bir məkan olması bəzən çətin olur. Lakin məktəb icması üzvlərinin fəallığı və səyi ilə infrastruktur baxımından uşağın inkişafı üçün məktəbin daha cəlbedici, maraqlı və təsirli məkana çevrilməsi mümkündür. Bu işdə təkcə məktəb administrasiyası və ya müəllim deyil, həm də şagirdin özü və valideynləri də əsas rol oynaya bilər, çünki

onlar məktəbdə nə istədiklərini, hansı çətinlikləri gördüklərini və məktəbi yaxşılaşdırmaq üçün nə etmək lazım olduğunu yaxşı bilirlər. Bu prosesdə şagird özünüidarəetməsinin rolu aparıcıdır, lakin hər bir şagird və valideynləri məktəbə qayğı göstərmək öhdəliyi daşıyır. Məhz buna görə də şagirdlərin günün demək olar ki, yarısını keçirdikləri mühitin yaxşılaşdırılmasında iştirak etmək məsuliyyətini hiss etdirməklə yanaşı, həm də onlarda əməkdaşlıq, komanda işi, təşkilatçılıq, planlaşdırma, vaxtın idarə edilməsi bacarıqları və məsuliyyəti , aktiv vətəndaş olmaq kimi mühüm bacarıqların inkişafına kömək edən bu layihənin həyata keçirilməsi vacibdir.

## Problemin müəyyən edilməsi və layihə fəaliyyətlərinin həyata keçirilməsi üçün lazımi resurslar

- Məktəb özünüidarəetməsinin fəaliyyətində iştirak
- Təhsil bağı nümunəsi
- Aktiv vətəndaşa necə çevrilim (გვ. 18 -21)
- Mülki təhsil üzrə məktəb layihələri üçün təlimatlar
- Müəllimlər üçün peşəkar hazırlıq proqramı "Demokratik vətəndaşlığın tədrisi", vətəndaş təhsilinin əhəmiyyəti və məktəbin rolu

nfrastruktur problemlərinin müəyyən edilməsi üçün lazımi fəaliyyətlər:

Məktəbdə məktəb mühitinin, xüsusən də infrastrukturun yaxşılaşdırılmasına yönələcək konkret layihənin planlaşdırılması üçün problemin müəyyənləşdirilməsi mərhələsindəcə məktəb icmasında araşdırmanın keçirilməsi məqsədəuyğundur. Araşdırmanın həyata keçirilməsi mərhələsində sizə lazım olacaq bəzi fəaliyyətlər bunlardır:

1. Diskussiya - **məktəbə nə** lazımdır? - Məktəb ictimaiyyətinin istənilən üzvü (şagird, müəllim, valideyn, rəhbərlik) disskusiyada iştirak edə bilər. Müzakirənin vaxtı və yerinin əvvəlcədən elan edilməsi və bu barədə məlumatın təxminən bir həftə əvvəl məktəb icması üzvlərinə çatdırılması tövsiyə olunur.

   Diskussiya nəticəsində layihə üzərində işləyən şagirdlər məktəb icmasındakı çətinliklər və infrastruktur ehtiyacları haqqında məlumat əldə edəcəklər ki, bu da layihənin planlaşdırılması üçün lazım olan araşdırmaların təşkilinə kömək edəcək.

2. Araşdırmanın planlaşdırılması - müəllim layihə üzərində işləyən şagirdləri araşdırma texnikaları ilə tanış edəcək (müəllim üçün lazım olan resurs: səh. 25-33), sonra isə şagirdlər məktəb həyatını və ətraf mühiti yaxşılaşdırmaq üçün araşdırmanı planlaşdıracaq və məktəb icmasında infrastruktur problemlərini müəyyən edəcəklər; Anket hazırlayacaqlar ki, ona əsasən də məktəb icmasının üzvləri ilə sorğu aparılmalıdır (qeyd: onlayn anket yaratmaq üçün linkə *daxil olun.*).

3. Araşdırmanın **həyata** keçirilməsi **və nəticələrin** təhlili - şagirdlər sorğu keçirəcək, göstəriciləri toplayacaq və nəticələri təhlil edəcəklər. Sonra isə sorğu nəticəsində aşkarlanan problem və ehtiyacları, eləcə də məktəb icması üzvlərinin arzu və ideyalarını təsnif edəcəklər.

## Mərhələ II – **hədəflərin**, vəzifələrin və onlara nail olmaq üçün zəruri olan fəaliyyətlərin müəyyən edilməsi

Müəllimə tövsiyə

Layihədə təklif olunan *hədəf* və vəzifələrlə bağlı fəaliyyətlər tövsiyə *xarakterlidir* və xüsusi olaraq şagirdləriniz və məktəbinizin ehtiyac və maraqlarına uyğunlaşdırıla bilər. Layihənin həyata keçirilməsi üçün zəruri olan fəaliyyətlərin planlaşdırılması prosesinə şagirdlər özünüidarəetməsinin cəlb edilməsi vacibdir və hətta mümkündür ki, layihəni bütövlükdə məhz şagirdlər özünüidarəetməsi planlaşdırsın. Bundan əlavə, tövsiyə olunur ki, layihə çərçivəsində fəaliyyətlərin planlaşdırılması/həyata keçirilməsinin bütün mərhələlərində məlumat məktəb ictimaiyyətinin bütün üzvlərinə arzu olunan formada təqdim edilsin, istək halında, planlaşdırılma və həyata keçirilməsində hər kəsin cəlb olunmaq imkanı olsun.

Şagirdlərin cəlb edilməsi və iştirakının keyfiyyətini artırmaq üçün onlara qeyd olunan materialı nümunə kimi təklif edin və layihə çərçivəsində ehtiyaclarını və digər detalları birlikdə müəyyənləşdirin - məsələn, məktəbdə infrastruktur problemlərini və ehtiyaclarını hansı yolla müəyyən edəcəklər, layihəni kiminlə həyata keçirəcəklər, prosesə kimləri cəlb edəcəklər və s.

## Layihənin hədəfi, vəzifələri və fəaliyyətləri nümunəsi



**Hədəf**: məktəb mühitinin yaxşılaşdırılması yolu ilə əməkdaşlıq, təşkiletmə, komanda işi, vaxtın idarə edilməsi və digər bacarıqların yaxşılaşdırılması və onların məsuliyyətli vətəndaş kimi formalaşmasına imkan yaratmaq.

Məqsədə çatmaq üçün növbəti **vəzifələri** həyata keçirin:

- Şagirdlər tərəfindən məktəb icması üzvlərinin hüquq və vəzifələrini başa düşülməsi;
- Məktəb mühitinin yaxşılaşdırılması üçün şagirdlər tərəfindən layihə(lər)in həyata keçirilməsi;
- Şagirdlər tərəfindən müxtəlif bacarıqların (əməkdaşlıq, komandada işləmək) və səriştələrin (məsuliyyət) inkişafı.

Gözlə**nilən nəticələr:**

Şagirdlər məktəb icmasının hər bir üzvünün hüquq və vəzifələrini bilirlər; cəmiyyətin hər hansı digər üzvü kimi təhsil aldıqları və yaşadıqları mühiti yaxşılaşdırmaq üçün eyni məsuliyyət daşıdıqlarını dərk edirlər; Məsuliyyət götürürlər və ümumi işi görməkdə əməkdaşlıq etməyi və komanda şəklində işləməyi bacarırlar.

**Hədəf**, vəzifə və fəaliyyətləri müəyyənləşdirərkən aşağıdakı suallardan istifadə edilə bilər:
Məktəb icmasının üzvü kimi şagirdin hüquq və vəzifələri hansılardır?
Məktəb mühitinin yaxşılaşdırılmasına necə töhfə verə bilərəm?
Layihələrin həyata keçirilməsində məktəb icmasının digər üzvləri və yerli icma nümayəndələri ilə necə əməkdaşlıq edə bilərəm?

## Fəaliyyətlərin nümunələri

| Fəaliyyət | Fəaliyyətin məqsədi | Alt-fəaliyyətlər |
|---|---|---|
| **Məktəb icması üzvlərini araşdırma nəticələri ilə tanış etmək** | Məktəbdə infrastruktur problemlərinin və prioritetlərin müəyyən edilməsi | *Görüşün təşkili;<br>* Məktəb icması üzvlərinin dəvət olunması;<br>* Məktəb icması üzvlərini araşdırma nəticələri ilə tanış etmək məqsədilə təqdimat hazırlamaq;<br>*Təqdimatdan sonrakı disskussiyanın fasilitasiyası. |
| Tövsiy**ələrin işlənib-hazırlanması** | Məktəbdə özünü büruzə verən infrastruktur problemlərinin həlli üçün lazımi fəaliyyətlərin yazılması | * Layihədə iştirak edən şagirdlərlə görüşün təşkili;<br>* Araşdırma nəticələrinin təhlili və məktəb ictimaiyyəti ilə müzakirə əsasında tövsiyələrin hazırlanması;<br>* Məktəb administrasiyasına tövsiyələr vermək;<br>*Məktəb stendində tövsiyələrin yerləşdirilməsi. |
| Vorkşop – Necə **layihə yazaq?** | Şagirdlərdə layihə müraciətini hazırlamaq bacarığının inkişaf etdirilməsi | *Müəllim tərəfindən vorkşopun planlaşdırılması və ya seminar keçirmək üçün uyğun qonağın dəvət edilməsi;<br>* Görüşün təşkili;<br>*Görüş üçün tələb olunan məkanın və texniki avadanlıqların hazırlanması;<br>*Vorkşopun keçirilməsi;<br>*Layihənin həyata keçirilməsində maraqlı tərəflərin müəyyən edilməsi (Resurs: Maraqlı Tərəflərin Təhlili) *Əlavə* 1 |
| Valideynl**ərlə görüş** | Layihənin həyata keçirilməsində valideynlərin iştirakına imkan yaratmaq | * Valideynləri görüşə dəvət etmək üçün məktubun hazırlanması (resurs: Valideynlər üçün d**ə**v**ə**t m**ə**ktubunun hazırlanması) *Əlavə* 2;<br>*Şagirdlərin və məktəbin ehtiyacları barədə sinif rəhbərləri tərəfindən valideynlərə məlumatların verilməsi;<br>*Valideynlərlə görüşün təşkili;<br>*Görüş üçün tələb olunan məkanın və texniki avadanlıqların hazırlanması;<br>*Məktəbdəki problemlərin həllinə valideynlərin necə cəlb oluna biləcəyi barədə görüş keçirmək və məlumat toplamaq.<br>(Qeyd: bu prosesdə sinif rəhbərlərinin iştirakı və onların rolu vacibdir) |
| Layih**ələrin** | Məktəbdə özünü büruzə verən | * Layihədə iştirak edən şagirdlərlə görüşünün təşkili; |

| | | |
|---|---|---|
| **planlaşdırılması** | infrastruktur problemlərinin həlli məqsədilə layihənin/layihələrin işlənib-hazırlanması. | *Araşdırma nəticələrinin təhlili və məktəb ictimaiyyəti ilə keçirilən görüşlər nəticəsində verilən tövsiyələr əsasında layihə istiqamətlərinin formalaşdırılması;<br>* Layihələr üzrə şagirdlərdən ibarət qrupların yaradılması;<br>*Şagirdlər tərəfindən layihənin planlaşdırılması/layihə müraciətinin hazırlanması. |
| "Fundraising" (fondların cə**lb edilməsi**) mövzusu üzrə **vorkşop** | Layihədə iştitak edən şəxsləri/şagirdləri maliyyə/qrantların axtarışı haqqında məlumatlandırmaq. | *Fundraising təcrübəsi olan qonağın dəvət edilməsi (hər hansı qeyri-hökumət təşkilatı ola bilər);<br>* Görüşün təşkili;<br>*Görüş üçün tələb olunan məkanın və texniki avadanlıqların hazırlanması;<br><br>İnteqrasiya: Riyaziyyat fənni ilə |
| Bizneslə **görüş** | Yerli biznesdə layihəni dəstəkləmək üçün maraq oyatmaq. | * Yerli bizneslər/biznesmenlər haqqında məlumatların toplanması;<br>*Bizneslə görüş planlaşdırmaq (məktəbə dəvət etmək və ya onları ziyarət etmək mümkündür; Görüş alınmasa, yazılı və ya elektron müraciət etmək mümkündür); |
| Layih**ənin məktəb administrasiyasına təqdim edilməsi** | Layihələrin həyata keçirilməsi, məktəb həyatında şagirdlərin iştirakı və hesabatlılıq etməsinə imkan yaratmaq | • Hazırlanmış layihə müraciəti şagirdlər tərəfindən büdcə və təşkilat qrupunun tərkibi (funksional bölgü) nəzərəalınmaqla məktəb administarsiyasına təqdim ediləcək. Bunun üçün şagirdlər layihəyə əlavə etdikləri ərizə (hər məktəbdə ərizə forması var) hazırlayırlar. İşi icra edən ərizəyə nömrə verir və baxılmaq üçün administrasiyaya göndərir.<br>• Administrasiya layihədə nəzərdə tutulan fəaliyyətlərdən hər hansı birinin tənzimlənməsi ilə əlaqədar layihənin həyata keçirilməsi üçün tövsiyə və ya icazə verə bilər.<br>• Layihənin administrasiyaya təqdimatı zamanı təşkilat qrupunun müəyyən edilməsi şagirdlərin məktəb fəaliyyətlərinə cəlb edilməsinə imkan yaradır. Bu, məktəbə şagirdin məktəb fəaliyyətlərində iştirakı ilə bağlı rəsmi məlumatlar üçün əlavə imkan verir. |
| **Layihələrin həyata keçirilməsi** | Şagirdlər tərəfindən layihə müraciətində yazılan fəaliyyətlərin həyata keçirilməsi. | *Şagird qrupları layihənin həyata keçirilməsi üçün lazımi addımlar atır. |

| | | |
|---|---|---|
| Yekun t**ədbir – nəticələrin yekunlaşdırılması** | Həyata keçirilən layihələrin nəticələr haqqında məktəb icmasını məlumatlandırmaq. | * Yekun tədbirin təşkili - müvafiq auditoriyanın və ya texniki avadanlıqların hazırlanması;<br>* İştirakçıların tədbirə dəvət edilməsi (icma nümayəndələri, media nümayəndələri, məktəb icmasının üzvləri, lazım gələrsə, yerli özünüidarəetmə nümayəndələri);<br>* Tədbirdə çıxış edənlərin müəyyən edilməsi;<br>* Təqdimatdan sonra disskusiya/müzakirə;<br>* Gələcək planların qurulması; |
| **Bələdçi yaratmaq** | Layihənin davamlılığını təmin etmək. | *bələdçi üzərində işləyən şagirdlərin müəyyən edilməsi;<br>* şagirdlər tərəfindən bələdçinin yaradılması;<br>*bələdçinin çap olunması (zəruri olduqda) və kitabxanaya(lara) təhvil verilməsi;<br>*şagirdlər tərəfindən bələdçinin məktəb ictimaiyyətinə verilməsi. |

Fəaliyyət planı ( fəaliyyətləri vaxt üzrə və məsul şəxslər arasında lazımi ş**əkildə** bölüşdürün)

| **Fəaliyyətlər** | |
|---|---|
| 1. **Məktəb icması üzvlərini araşdırma nəticələri ilə tanış etmək** | 7. Bizneslə **görüş** |
| 2. Tövsiy**ələrin işlənib-hazırlanmas** | 8. **Məktəb administrasiyasına layihənin təqdim edilməsi** |
| 3. Vorkşop – Necə **layihə yazaq?** | 9. **Layihələrin həyata keçirilməsi** |
| 4. Valideynl**ərlə görüş** | 10.Yekun t**ədbir – nəticələrin yekunlaşdırılması** |
| 5. Layih**ələrin planlaşdırılması** | 11. **Bələdçi yaratmaq** |
| 6. "Fundraising" (fondların axtarışı) mövzusu üzr**ə vorkşop** | |

## III mərhələ - **Əməkdaşlıq və layihənin həyata keçirilməsi**

Müəllimə tövsiyə

Layihəni həyata keçirən şagirdlər məktəb icmasının üzvləri ilə daim əməkdaşlıq etməlidirlər; Bütün mərhələlərdə onlara layihənin gedişatı barədə məlumat verilməlidir ki, məktəbdə proseslər daha demokratik və şəffaf olsun. Buna görə də şagirdlərdən xahiş edin ki, ilkin mərhələdə layihə haqqında məlumatı məktəb ictimaiyyətindəcə yaysınlar.

Maraqlı tərəflərin təhlili - potensial dəstəkçilər

Tərəfdaşların tapılması

Layihə çərçivəsində yalnız məktəb icmasının üzvləri ilə deyil, həmçinin cəmiyyətin digər üzvləri, yerli icma, hökumət, qeyri-hökumət təşkilatları, biznes və s. ilə əməkdaşlıq vacib və zəruri olacaq. Əməkdaşlıq ehtiyaca və məktəbdə ətraf mühitin yaxşılaşdırılması üçün hansı layihələrin həyata keçirilməsinin planlaşdırıldığına əsaslanır.

Görüşl**ərin təşkili**

Layihənin xarakterindən və formatından asılı olaraq, ilk növbədə məktəb ictimaiyyətinin üzvləri ilə mütəmadi görüşlərin təşkili vacibdir; Həmçinin, layihə çərçivəsində planlaşdırılan fəaliyyətləri həm maliyyə, həm də digər növ resurslarla dəstəkləyən təşkilatlar və ya şəxslərlə də.

Məktəb özünüidarəetməsinin iştirakı

Bu layihədə şagirdlər özünüidarəetməsinin iştirakı xüsusilə mühümdür. Hətta, layihəni tam həyata keçirən məhz şagirdlər özünüidarəetməsi də ola bilər.

Layihə çərçivəsində **əməkdaşlıq** etməyin mümkün olduğu təşkilatlar:

- “Orbeliani Meti”
- Initiatives.GE
- Yerli özünüidarəetmə;
- Yerli biznes/müəssisələr
- Layihələr çərçivəsində şagirdlərə dəstək olmaq üçün vaxtaşırı kiçik qrantlar elan edən qeyri-hökumət təşkilatları

## IV **mərhələ** - davamlılıq

Müəllimə tövsiyə

Layihədə iştirak edən şagirdlərlə birlikdə yekun tədbir çərçivəsində layihənin davamlılığına töhfə verəcək addımları və gələcək tədbirləri qeyd etmək tövsiyə olunur. Bundan əlavə, yaradılmış məhsulların və onların nəticələrinin yerli ictimaiyyətlə paylaşılması arzuolunandır ki, onlar icmada hansı layihələrin həyata keçirildiyi barədə məlumat əldə etsinlər; Həmçinin, digər məktəblərlə təcrübə mübadiləsi də mühümdür.

Layih**ənin qiymətləndirilməsi**

Layihəni qiymətləndirmək üçün məktəb icmasının üzvləri üçün, layihənin nəticələrini qiymətləndirəcəkləri xüsusi anketin hazırlanması məqsədəuyğundur. Bundan əlavə, layihədə iştirak edən şagirdlərlə bərabər hansı maneələrlə

rastlaşdıqlarını, çətinlikləri necə dəf etdiklərini müzakirə etmək üçün refleksiya keçirmək yaxşı nəticə verəcək; Gələcəkdə oxşar layihələr həyata keçirərkən prosesi asanlaşdırmaq üçün nələr nəzərə alınmalıdır?

Layih**ənin davamlılığı**

Layihənin davamlılına xüsusi bələdçinin yaradılmasını nəzərdə tutan sonuncu fəaliyyət imkan yaradacaq. Bələdçi gələcəkdə digər şagird qrupları və hətta, digər məktəblər üçün də faydalı olacaq.

Gözl**ənilən risklər:**

- - layihənin həyata keçirilməsi üçün potensial maliyyə dəstəkçilərinin əldə edilməməsi;
- layihənin həyata keçirilməsi üçün lazımi addımların atılmasında məktəb icması üzvlərinin passivliyi.

Solo taksonomiyaya görə qiymətləndirmə

| | **Cəmiyyət** | Demokratiya | Mülki iştirak | Davamlı inkişaf |
|---|---|---|---|---|
| Nisbi səviyyə | Şagird insanlar/sosial qruplar/qurumlarla əməkdaşlıqda iddialıdır; Digər insanlarla ünsiyyət və şəxsi inkişaf əlaqəsini izah edir; Bununla, təhlil edir ki, istənilən insanın inkişafı üçün sosial kontaktlara ehtiyacı var; Fərqli fikirlərə hörmət edir və başqaları ilə əməkdaşlıq edir. | Şagird məktəbdə demokratik mühitin formalaşmasının əhəmiyyətini təhlil edir və dərk edir ki, demokratik mühitin formalaşması üçün məktəb icmasının hər bir üzvünün hüquqlarının bərabər qorunması mühümdür. Bu da öz növbəsində məktəb mühitinin yaxşılaşdırılmasında mühüm rol oynayır. | Şagird məktəbdə mövcud problemi görür, problemi həll etmə nəticələrini təhlil edir və onu həll etmək üçün lazımi addımların planlaşdırılmasında və həyata keçirilməsində iştirak edə bilir. Həmçinin, məsuliyyətli şagird kimi, məktəb icmasında mövcud problemlərin həlli istiqamətində bərabərlik və şəffaflığın əhəmiyyətini əsaslandırır və layihələrin planlaşdırılması-həyata keçirilməsində, könüllülük fəaliyyətlərində öz rolunu görür. | Şagird, məktəb icmasında mövcud infrastruktur problemlərinin həlli prosesində resurslardan sabit istifadə etməyin əhəmiyyətini izah edir; Həmçinin, təhlil edir ki, lokal davranışlar qlobal nəticələrlə sonlana bilər; Bundan əlavə, innovasiyalar və infrastrukturun yaxşılaşdırılması və davamlı inkişaf arasında əlaqə yaradır. |

### Əlavə 1

## Maraqlı **tərəflərin təhlili**

Maraqlı tərəf, izahata görə, bizim üçün vacib olan prosesə təsir edən və ya ondan təsirlənən şəxs, qrup və ya təşkilatdır.

Məktəb həyatınızdan mülki iştirakı təmin etməyin vacib olduğu prosesi seçin;

-----------------------------------------------------------------------------------------------

Bu prosesdə maraqlı tərəfləri kimin təmsil etdiyini düşünün;

.......................................................................................................................................................................................................
.......................................................................................................................................................................................................
...................................................................

Maraqlı tərəfləri prosesə təsirlərinə və prosesə maraqlarına görə qiymətləndirin və cədvəli doldurun (müvafiq sütun(lar)da + işarəsi qoyun);

| Maraqlı tərəf | Təsir | Maraq |
| --- | --- | --- |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

Maraqlı tərəfləri müvafiq seqmentdə qrafikə yerləşdirin (növbəti səhifədə);

Bir neçə maraqlı tərəf seçin və onların iştirakını (təsiri və marağı) artırmaq üçün nə edilə biləcəyini düşünün.

Maraqlı **tərəflərin təhlil sxemi**



| Maraqlı tərəf | İştirakı artıracaq strategiya |
|---|---|
| | |
| | |
| | |

## Əlavə 2

## Validevnlərlə görüş

**Təlimat:** Valideynlər də, şagirdlər, müəllimlər və məktəb rəhbərliyi kimi məktəb ictimaiyyətinin üzvləridir, ona görə də onların planlaşdırılan layihə(lər) barədə məlumatlandırılması və layihənin həyata keçirilməsində iştirakının təmin edilməsi mühümdür. Valideynlərlə görüşün təşkilində sinif rəhbərləri/məktəb administrasiyasından kömək istəyin. Məqsədiniz onları layihənin təfərrüatları ilə tanış etmək, fikirlərini eşitmək və layihəyə mümkün töhfələri haqqında məlumat toplamaqdır. Gələn həftə valideynlərinizlə görüşməyi planlaşdırırsınız, ona görə də valideynlər üçün dəvət məktubu hazırlayın.

**Dəvətnamə növbəti məlumatı əhatə etməlidir:**

Görüşün məqsədi:

Valideynlərdə iştirak motivasiyasını artıracaq məlumat:

Görüş planı (müzakirə olunacaq məsələlər).